# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**YAP bundan sonra da Azərbaycanın inkişafının və yeni qələbələrinin siyasi avanqardı kimi çıxış edəcək**



5

# Dirçələn və inkişaf edən Şamaxı!




3


SƏS

№ 070 (7480)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

18 sentyabr 2026-cı il.
Qiyməti 1 manat


# Azərbaycanın beynəlxalq tədbirlər xəritəsi genişlənir




15

**Müharibəyə 10 gün qalırdı...**



14

**"Bakı Türk Dövlətləri Təşkilatının ortaq maraqlarının uzlaşdırıldığı mərkəzdir"**



4

**Ay valideyn, bir başını qaldır, bir uşaq otağına keç!**



11

**Roblox uşaqlar üçün sadəcə oyun deyil: valideynlərin bilmədiyi təhlükələr və yeni qaydalar**




16

**Avtomobillərdə hansı təhlükəsizlik vasitələri olmasa cərimələnərik?**



11

# Azərbaycan həm Türk dünyasının bir parçası, həm də Qafqaz ölkəsidir

***Azərbaycan bu gün beynəlxalq tədbirlərə tez-tez ev sahibliyi edən bir ölkədir. Bu xüsusiyyəti onu artıq dünyaya tanıdıb. Dünya mediası hər dəfə belə tədbirlər zamanı Azərbaycandan, onun çoxəsrlik tarixə, zəngin mədəniyyətə, coğrafiyaya malik olmasından bəhs etməklə ölkəmizin daha dərindən dünya ictimaiyyətinə tanıdılmasında böyük rol oynayır.***



Prezident İlham Əliyevin sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etməsi də böyük coğrafiyaları, mədəniyyətləri bir araya gətirən belə tədbirlərdən biridir.

### Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir

Dövlət başçısı çıxışı zamanı bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının, eyni zamanda böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirildiyini və çoxlu qonaqların bu konfransda iştirak etdiyini qeyd edərək bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası olduğunu vurğulayıb: Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır...Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün İslam aləmi üçün çox böyük dəyərdir.

### Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi

Dövlət başçısı tədbirlərdə bir çox ölkələrdən dini liderlərin və Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini liderlərindən başqa, bu gün Gürcüstan, Suriya dini liderləri, Şimali Qafqaz respublikalarının nümayəndələri, xüsusilə Dağıstandan, Çeçenistandan olan dini rəhbərlərin iştirakını vurğulayaraq bunun birliyin nümunəsi olduğunu bildirib. Və bildirib ki, təbii ki, burada Azərbaycanın xüsusi rolu var. Çünki Azərbaycan həm Türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir. Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür. Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi, bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir...Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, Türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

### Bizim Türk dünyası ilə sıx əlaqələrimiz var

Son illər dövlət başçısının türk dövlətlərinə səfərləri, Türk Dövlətləri Təşkilatı ilə keçirilən tədbirlər deməyə əsas verir ki, bəli, türk dünyası ilə Azərbaycanın sıx

əlaqələri var və bu, hər il daha da güclənir. Bu fikirləri dövlətimizin başçısı tədbirdə söyləmiş və faktlarla əsaslandırmışdır. Türk dünyası ilə sıx əlaqələrimizin, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimizin olduğunu bildirən dövlət başçısı tədbir iştirakçılarına xitabən- təbii ki, burada sizin bir yerdə olmağınız çox böyük rəmzi məna daşıyır,-deyib və vurğulayıb ki, belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir.

### Çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək

Dövlət başçısı bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələrin hamını narahat etdiyini də bildirib. Və qeyd edib ki, biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək.

Təbii ki, bu həmrəyliyin gücləndirilməsində sıx əməkdaşlıq vacibdir. Bu fikirlər də dövlətimizin başçısının çıxışında yer almışdır: Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı, ICESCO təşkilatı xətti ilə bir çox tədbirlər keçirilmişdir. Hələ təxminən 10 il bundan əvvəl - 2017-ci ildə bizim təşəbbüsümüzlə və bütün müsəlman ölkələrinin dəstəyi ilə Bakıda IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Biz də bu Oyunları, sadəcə olaraq, idman yarışı kimi deyil, böyük birlik bayramı kimi qəbul edirdik.

### Azərbaycan birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkədir

Həmrəyliyin, əməkdaşlığın yeni müstəvidə inkişafı üçün tədbirlər davam edir. Elə gələn il İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşünün Bakıda keçiriləcəyi də bu fikirləri təsdiqləyir.

Dövlətimizin başçısı bu məsələyə də münasibət bildirib: Dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi hesab edirəm ki, təsadüfi deyil. Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə Görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə Görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, İslam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik.

Dövlət başçısı tədbir iştirakçılarının Bakıda olmasının və bir yerdə tədbirlərdə iştirakının həm bölgəmizə, həm dünyaya çox ciddi və birmənalı mesajlar verəcəyini vurğulayıb.

***Mətanət Məmmədova***

# Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib. Hakan Fidan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi. Söhbət zamanı Azərbaycan-Türkiyə qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın "bir millət, iki dövlət" prinsipi əsasında daha da möhkəmləndiyi məmnunluqla qeyd edildi.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, alternativ enerji istiqamətində beynəlxalq bazarlara yeni çıxış yolları ilə bağlı fikir mübadiləsi aparıldı. Ölkələrimizin logistika baxımından əhəmiyyəti, o cümlədən Avropa ilə Asiya arasında mühüm körpü rolu oynadıqları vurğulandı, beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizin əlaqələndirilməsinin önəmi qeyd olundu. Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzularla bağlı fikir mübadiləsi aparıldı.






# Dirçələn və inkişaf edən Şamaxı!

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxı rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.***

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər*







Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanış olublar. Tarixi Pir Ömər Sultan ziyarətgahı Şamaxı rayonunun Avaxıl kəndində yerləşir. Burada aparılan ilkin arxeoloji tədqiqatlar nəticəsində XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən artefaktlar tapılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci ildə Şamaxıya səfərləri çərçivəsində ziyarətgahda olub və abidədə konservasiya işlərinin aparılmasına dair tapşırıqlar veriblər.

Ziyarətgahın çay və qaya daşlarından tikilmiş qalıqları ötən müddət ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə konservasiya edilib. Ziyarətgahın içərisində Pir Ömər Avaxılıya, kənarlarında isə başqa şəxslərə aid 8 qəbir aşkar edilərək səliqəyə salınıb. Ziyarətgahın və onun ətrafının konservasiya işlərindən sonra qorunması üçün eyni daş materialından divar hörülüb. Divarın üzərində 16 metr hündürlüyündə səkkizbucaqlı metal konstruksiyadan hazırlanmış çardaq qurulub. Ziyarətgah və onun ətrafında konservasiya olunan sahədə buraya gələnlər üçün gəzinti zolağı yaradılıb. Aparılan işlər zamanı təbiətə və ətrafdakı qəbirlərə ziyan dəyməməsinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, bu ziyarətgahın bərpası dini-tarixi abidələrin qorunub saxlanılması istiqamətində dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsidir. Pir Ömər Sultan ziyarətgahının konservasiyasının Heydər Əliyev Fondunun dəstəyi ilə aparılması isə Fondun ölkəmizdə dövlət səviyyəsində icra edilən bu işlərə verdiyi böyük dəstəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Pirqulu Park" hotelinin açılışında iştirak ediblər. "Moderngroup" MMC-nin təmsilçisi Fariz Abbaszadə dövlətimizin başçısına və birinci xanıma hoteldə yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, Pirqulu qəsəbəsində inşa edilən hotel Şamaxı Astrofizika Rəsədxanasının yaxınlığında yerləşir. Ərazisi 16 hektar olan kompleksə 2 hotel binası daxildir. Binalardan biri 188, digəri isə 172 yerlikdir. Burada müxtəlif kateqoriyadan 175 nömrə və 2 kottec var. Bu isə eyni vaxtda hoteldə 366 qonağın qalmasına imkan verir. Kompleksdə restoranlar, kafelər, görüş və təlimlər üçün 160 yerlik zal mövcuddur. Ərazidə 600 nəfərlik konqres binası, uşaq əyləncə mərkəzi, amfiteatr yaradılıb.

Qeyd edək ki, Azərbaycanda turizm sektorunun davamlı və hərtərəfli inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Vətənimizin zəngin təbii resursları, qədim tarixi-mədəni irsi və nadir iqlim müxtəlifliyi ilə yanaşı, turizm sənayesinin inkişafı ilə bağlı dövlət səviyyəsində görülən işlər Azərbaycanı dünyanın hər yerindən olan turistlər üçün cəlbedici ölkəyə çevirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olublar. Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma kompleksdə yaradılmış şərait barədə məlumat verdi. "Nəsimi Bağları" kompleksi Şamaxı rayonunda yeni istifadəyə verilən, sakinlərin və qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış növbəti bir məkandır.

Kompleks Şamaxı rayonunda turizmin inkişafına töhfə vermək, bölgənin turizm potensialını artırmaq, ərazinin təbii xüsusiyyətlərini qorumaq, həmçinin ailəvi istirahətin və asudə vaxtın səmərəli təşkili üçün rahat mühit yaratmaq prinsipləri əsasında qurulub. Çoxfunksiyalı turizm, mədəniyyət və rekreasiya layihəsi kimi fəaliyyət göstərən "Nəsimi Bağları" kompleksinin ərazisində müxtəlif istirahət obyektləri, ailəvi əyləncə infrastrukturu, fərqli mövzularda incəsənət nümunələri, iaşə obyektləri yerləşir.

Ərazidəki üçmərtəbəli əsas bina kompleksin informasiya və turizm mərkəzi funksiyasını yerinə yetirir. Burada ziyarətçilərə "Nəsimi Bağları"ndakı məkanlar, turist marşrutları və xidmətlər barədə məlumat verilir. Binanın daxilində ziyarətçilərin rahat və səmərəli vaxt keçirmələri üçün "Capybara Cafe" və suvenir mağazası var.

Dördmərtəbəli digər korpusda Şamaxının qədim və müasir tarixini, mədəni irsini əks etdirən zəngin ekspozisiyaya malik muzey yaradılıb. Bu binada, həmçinin əsas restoran zalı, tədbirlərin keçirilməsi üçün zal və geniş terras var. Kompleks ərazisindəki "Magic Village" hobbit evləri üslubunda inşa edilən tematik evlər, əsasən uşaqların maraqla qarşılayacağı "Honey Nest" kafesi, geniş uşaq oyun meydançası və hündürlüyü 9 metr olan baxış qülləsindən ibarətdir. Buradakı evlər tam yaşayış şəraiti ilə təmin edilib və turistlərin ilboyu qalması üçün nəzərdə tutulub. Qeyd edək ki, burada Azərbaycanda ilk və yeganə ixtisaslaşmış kapibara ferması -"Capybara Land" var. Fermada heyvanları yaxından görmək, toxunmaq və yemləmək mümkündür.

Kompleks ərazisində Azərbaycan, eləcə də xarici rəssam və heykəltaraşların yaratdığı 100-dən çox əsər və instalyasiya nümayiş etdirilir. Burada Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin müasir üslubda hazırlanmış abidəsi (instalyasiyası) də var. Hündürlüyü 21 metr olan abidə (instalyasiya) nəhəngliyi ilə diqqət çəkir və Şamaxının bir çox yerindən görünür.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında iştirak ediblər. "Pasha Hospitality" şirkətinin baş icraçı direktoru Mehmet Balçik dövlətimizin başçısına və birinci xanıma Şamaxı rayonunun Meysəri kəndində yeni inşa olunan "Meysari Grand Hotel & SPA" barədə məlumat verərək dedi ki, kompleks çoxfunksiyalı turizm və istirahət məkanıdır. Bildirildi ki, dəniz səviyyəsindən 1050 metr yüksəklikdə yerləşən kompleks özündə hotel və kotteclər, restoranlar, konfrans mərkəzi, SPA və sağlamlıq mərkəzi, idman və istirahət zonaları, uşaq əyləncə mərkəzi, avtomobil dayanacağı və helikopter meydançasını birləşdirir.

Kompleksin əsas hotel binasında müxtəlif kateqoriyalarda 88 otaq, kottec hissəsində isə 116 otaq olmaqla, ümumilikdə 204 otaq mövcuddur. Bundan əlavə, kompleksin ərazisində 3 villa da yerləşir. Burada fəaliyyət göstərən sağlamlıq mərkəzində qonaqların istirahəti, sağlamlıqlarının bərpası üçün geniş imkanlar yaradılıb.

Kompleksdə 3 hovuz, idman və pilates zalları, tennis kortu, futbol meydançası, padel kortu və uşaq əyləncə mərkəzi qurulub. Helikopter meydançası isə zəruri hallarda qonaqların hava nəqliyyatından istifadə etmələri üçün nəzərdə tutulub. Kompleksdə restoranlar da fəaliyyət göstərəcək. Ərazidə Nəsimi Konfrans Mərkəzi də yerləşir. Ümumilikdə 420 nəfərlik mərkəzdə konfransların, toplantıların, təqdimatların, işgüzar görüşlərin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, kompleksin ərazisində daha kiçikmiqyaslı tədbirlər və görüşlərin təşkili məqsədilə zal da var. Kompleksdə qapalı və açıq avtomobil dayanacağı zonaları yaradılıb. Burada ümumilikdə 320 yeni iş yeri açılıb.

# Prezident İlham Əliyev “Qobustan” Günəş Elektrik Stansiyasının açılışında iştirak edib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da paytaxtın Qaradağ rayonunda 100 MVt gücündə “Qobustan” Günəş Elektrik Stansiyasının açılışında iştirak edib.***



Energetika naziri Pərviz Şahbazov, Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey, “Universal International Holdings Limited” şirkətinin baş icraçı direktoru Yi Nan dövlətimizin başçısını qarşıladılar. Prezident İlham Əliyevə “Qobustan” Günəş Elektrik Stansiyası, ”Universal Energy” şirkəti və onun Azərbaycandakı fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Çinin Şanxay şəhərində yaradılmış şirkət yaşıl enerji və enerji saxlanc sistemləri üzrə həllər təqdim edir. ”Universal Energy” Çinlə yanaşı, Qazaxıstan və Özbəkistanda da bərpaolunan enerji layihələri həyata keçirir.

Nazirlər Kabinetinin 2023-cü ildə qəbul etdiyi qərarla Bakı şəhərinin Qaradağ rayonunun Pirsaat qəsəbəsində 300,77 hektar torpaq sahəsi Günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyənləşdirilib. Bu ərazi Günəş elektrik stansiyasının tikintisi məqsədilə hərraca çıxarılıb və Çinin “Universal International Holdings Limited” şirkəti 2024-cü ildə hərracın qalibi olub.

“Qobustan” Günəş Elektrik Stansiyası layihəsi Azərbaycanda hərrac vasitəsilə həyata keçirilən ilk, eyni zamanda, ”Universal Energy” şirkətinin ölkəmizdə icra etdiyi birinci layihədir. Stansiyada Günəş panelləri ilə yanaşı, sahə invertorları və transformatorlar quraşdırılıb, kabelləşdirmə işləri tam yerinə yetirilib.

“Qobustan” Günəş Elektrik Stansiyasının istismara verilməsindən sonra hər il təxminən 200 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 45 milyon kubmetr təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 97 min ton azaltmağa imkan verəcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən enerji siyasətinin prioritet istiqamətlərindən biri də bərpaolunan enerji mənbələrinin geniş tətbiqidir.

Azərbaycanda yaşıl enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. İqtisadi potensial 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 QVt, Günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmində qiymətləndirilir. “Qobustan” Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə ölkəmizdə bərpaolunan enerji mənbələrinin ümumi gücü 2170 MVt, stansiyaların sayı isə 85 olacaq. Onların da 65-i su elektrik stansiyası (1443,5 MVt), 6-sı külək elektrik stansiyası (306,5 MVt), 10-u Günəş elektrik stansiyası (378,2 MVt), 3-ü hibrid elektrik stansiyası (7,3 MVt), 1-i isə BİO elektrik stansiyasıdır (37 MVt). Bərpaolunan enerji mənbələri ölkəmizin ümumi enerji gücünün təxminən 21,5 faizini təşkil edir. 2027-ci ilin sonunadək təxminən 1,5 QVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur. Yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən bu layihələr ölkəmizin elektrik enerjisi ilə təminatı məsələsinə töhfə verməklə yanaşı, təbii qaza qənaət etməyə və atmosferə atılan karbon emissiyalarını xeyli azaltmağa şərait yaradır.







# “Bakı Türk Dövlətləri Təşkilatının ortaq maraqlarının uzlaşdırıldığı mərkəzdir"



***"Bir neçə gün əvvəl Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin dini liderlərinin, bu gün isə Təhlükəsizlik Şuralarının katiblərinin Bakıda bir araya gəlməsi Azərbaycanın TDT çərçivəsindəki münasibətlərinin yüksək səviyyəsini, sistemli və çoxşaxəli xarakterini nümayiş etdirir.***

Qısa müddət ərzində dini və təhlükəsizlik sahələrini əhatə edən belə mühüm tədbirlərin Bakıda keçirilməsi təsadüfi deyil. Bu, Azərbaycanın Türk dünyasında etibarlı tərəfdaş, dialoq və əməkdaşlıq üçün mühüm mərkəz kimi mövqeyinin möhkəmləndiyini göstərir". Bu fikirləri ”Səs” qəzetinin baş redaktoru, siyasi şərhçi Bəhruz Quliyev deyib.

Ekspert bildirib ki, Azərbaycanın təşəbbüskarlığı və təşkilatçılıq imkanları TDT çərçivəsində siyasi, təhlükəsizlik, humanitar və mənəvi əməkdaşlığın inkişafına mühüm töhfə verir. Dini liderlərin görüşü türk dövlətləri arasında mənəvi və mədəni bağların möhkəmləndirilməsinə, təhlükəsizlik məsələləri üzrə müzakirələr isə qarşılıqlı etimadın və koordinasiyanın gücləndirilməsinə xidmət edir.

”Bu baxımdan, hesab edirəm ki, Bakı yalnız tədbirlərin keçirildiyi məkan deyil, həm də Türk Dövlətləri Təşkilatı daxilində ortaq maraqların uzlaşdırıldığı, regional və beynəlxalq məsələlərin müzakirə olunduğu mühüm platformaya çevrilir. Azərbaycanın TDT-də fəal və etibarlı mövqeyi Türk dünyasının birlik, həmrəylik və təhlükəsizlik gündəliyinin formalaşmasında ölkəmizin artan rolunu bir daha təsdiqləyir”, deyə B.Quliyev əlavə edib.

# YAP bundan sonra da Azərbaycanın inkişafının və yeni qələbələrinin siyasi avanqardı kimi çıxış edəcək






***Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, büstün önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsindən, partiyanın ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyindən bəhs edib. Hesabat məruzəsində rayon təşkilatının fəaliyyətinin partiyanın müəyyən etdiyi prioritet istiqamətlər əsasında təşkil olunduğu qeyd olunub. Ərazi partiya təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi, üzvlərin ictimai-siyasi proseslərdə fəal iştirakının təşviqi, eləcə də gənclərin və qadınların partiya fəaliyyətinə cəlb olunması ilə bağlı müxtəlif layihələrin reallaşdırıldığı diqqətə çatdırılıb.



Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ilin noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması müasir dövlətçilik tariximizdə əlamətdar hadisədir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın ölkəmizi daim irəliyə apararaq əhəmiyyətli uğurlara imza atdığı, ümumxalq etimadını qazandığı vurğulanıb. Qeyd olunub ki, həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, bütün istiqamətlərdə sürətli inkişafa nail olunub, Azərbaycanın siyasi-iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq münasibətlər sistemində nüfuzu artıb.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından bəhs edib. O diqqətə çatdırıb ki, dövlət başçısının müstəqil və uzaqgörən siyasəti nəticəsində həm ölkəmizdə, həm də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov çıxışında Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasını müasir tariximizin ən mühüm hadisəsi və möhtəşəm nailiyyəti kimi dəyərləndirib. O, yeni mərhələdə ölkəmizin qarşısında strateji hədəflərin dayandığını, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli məqsədlərin bundan sonra da uğurla reallaşdırılacağına əminliyini ifadə edib.

Şəhid İsmayıl Kərimlinin atası Ceyhun Kərimli, ərazi partiya təşkilatı sədri, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şöbə müdiri Gülbəniz Əliyeva, "Bakı Tikiş Evi" ASC-nin sədr müavini Elnur Rəhimov və Azərbaycan Dillər Universitetinin üçüncü kurs tələbəsi Sevinc Eyyubzadə Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin və azərbaycançılıq ideologiyasının gənc nəslə çatdırılması, milli-mənəvi dəyərlərin qorunması və partiya üzvlərinin ictimai proseslərdə iştirakının genişləndirilməsi məqsədilə görülən işlərin əhəmiyyətindən bəhs ediblər.

Konfransda çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov qeyd edib ki, 2026-cı il sentyabrın 7-dən etibarən Yeni Azərbaycan Partiyasının respublikanın bütün bölgələrini əhatə edən rayon və şəhər təşkilatları tərəfindən hesabat konfransları keçirilir, partiyanın VII qurultayından sonra qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görülmüş işlərə dair məruzələr dinlənilir, əldə olunmuş nəticələr təhlil edilərək geniş müzakirələr aparılır. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının konfransı da istər hesabat dövründə həyata keçirilən fəaliyyətin nəticələrinin qiymətləndirilməsi, istərsə də gələcəyə yönəlik hədəflərlə bağlı fikir mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyətə malikdir.

Tahir Budaqov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa edən Azərbaycan əldə etdiyi müvəffəqiyyətlərlə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur: "Milli maraqlara əsaslanan və müasir çağırışlara cavab verən mütərəqqi siyasəti ilə ölkəmizin davamlı inkişafını təmin edən Prezident İlham Əliyev Azərbaycanın qüdrətini və nüfuzunu daha da artırmış, onun regiondakı lider mövqeyini möhkəmləndirmiş, dünyada dialoq və əməkdaşlıq məkanı, etibarlı və konstruktiv tərəfdaş imicini gücləndirmişdir. Bu gün sıralarında 800 minə yaxın vətəndaşımızı birləşdirən, öz fəaliyyətində dialoq, əməkdaşlıq, qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərinə söykənən,



plüralizmi təşviq edərək siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası da müasir çağırışları və hədəfləri əsas götürərək partiyanın Proqram və Nizamnaməsi çərçivəsində, habelə İdarə Heyətinin qəbul etdiyi qərarlara uyğun məqsədyönlü fəaliyyət həyata keçirir. VII qurultaydan sonra müəyyən olunmuş vəzifələrin icrası istiqamətində ardıcıl tədbirlər reallaşdırılmış, partiyanın çevik və səmərəli fəaliyyətini təmin etmək məqsədilə onun normativ-hüquqi bazasının möhkəmləndirilməsi, partiya üzvlərinin uçot sistemində tam dəqiqliyin təmin edilməsi və məlumatlara nəzarətin gücləndirilməsi, maliyyə intizamının möhkəmləndirilməsi, Heydər Əliyev ideyalarının və azərbaycançılıq ideologiyasının təşviqi, Prezident İlham Əliyevin müasir dövlətçilik strategiyasının, Yeni Azərbaycan Partiyasının dəyərlərinin və fəaliyyət prinsiplərinin təbliği, milli maraqların qorunması üçün partiya diplomatiyasının yeni reallıqlara uyğun davam etdirilməsi xüsusi diqqət mərkəzində olmuş, eləcə də Yeni Azərbaycan Partiyası ilə 10 siyasi partiya arasında əməkdaşlıq sazişləri imzalanmış, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı, Mərkəzçi Demokrat İnternasionalı kimi beynəlxalq siyasi platformalarda partiyanın fəal iştirakı təmin edilmiş, YAP-ın ev sahibliyi və tərəfdaş siyasi partiyaların iştirakı ilə 11 beynəlxalq konfrans keçirilmişdir".

Natiq qeyd edib ki, hesabat dövründə yerli təşkilatların, o cümlədən YAP Nəsimi rayon təşkilatının fəaliyyətinin Nizamnamə tələbləri əsasında qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi və digər istiqamətlərdə əsaslı işlər görülmüş, tədbirlərin müxtəlifliyini və sayını artırmaqla mütəşəkkil qaydada keçirilməsi, qərarların icrası, vətəndaş müraciətlərinə baxılmanın qaydalara uyğun aparılması diqqətdə saxlanılmışdır. Onun sözlərinə görə, YAP Nəsimi rayon təşkilatının sıralarında hazırda 27 mindən artıq üzv birləşmişdir ki, onlardan 15 mindən çoxu qadınlar, 3000-dən çoxu isə gənclərdir: "Bu böyük potensial rayon təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir. Rayon təşkilatı bundan sonra da fəaliyyətini müasir dövrün tələbləri və çağırışları əsasında davam etdirərək ideoloji işinin gücləndirilməsi, ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi, partiya sıralarının genişləndirilməsi və digər istiqamətlərdə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməli, ölkəmizdə sabitlik və həmrəyliyin qorunmasına, xalq-iqtidar birliyinin daha da möhkəmlənməsinə öz töhfəsini verməlidir".

Tahir Budaqov əlavə edib ki, bu gün Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dövləti öz milli maraqlarını rəhbər tutaraq müstəqil siyasətini uğurla davam etdirir, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir: "Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, əzmlə, inamla və şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcək, Azərbaycanın inkişafının və yeni qələbələrinin siyasi avanqardı kimi çıxış edəcəkdir. Ümummilli Liderimizin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Dünən Azərbaycan naminə siyasi məsuliyyəti öz üzərinə götürən Ulu Öndərin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP sabah da ümumxalq partiyası kimi fəaliyyətini uğurla davam etdirərək Azərbaycana möhtəşəm nailiyyətlər qazandıracaqdır. Hər birinizə Heydər Əliyev ideyalarına sadiq qalmaqla Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək həyata keçirdiyiniz şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm".

Konfransda YAP Nəsimi rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. \Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Dünənin, bu günün və gələcəyin partiyası






Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev hesabat məruzəsi ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində xalqın etimadını doğruldaraq ölkənin siyasi, iqtisadi və ictimai inkişafında mühüm rol oynadığını bildirib. Qeyd edilib ki, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi strategiyanın Prezident, YAP Sədri İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilməsi ölkə tarixində mühüm nəticələrin əldə olunmasına imkan verib.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti ölkənin sosial-iqtisadi və siyasi inkişafının fundamental əsaslarını formalaşdırıb. Bu strateji xəttin Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə, dövlətçilik ənənələrinin inkişafına, eləcə də ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına şərait yaradıb.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova YAP-ın ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb. O, partiyanın rayon təşkilatının fəaliyyətinin sistemli şəkildə həyata keçirildiyini və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırıb.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət, xalqın həmrəyliyi və ordumuzun gücü nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz təmin edilib. O, bu nailiyyətlərin Azərbaycanın regionda və beynəlxalq müstəvidə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdiyini qeyd edib.

Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, şəhid anası Mehriban Əmrahova qeyd ediblər ki, partiya ötən illər ərzində cəmiyyətin böyük inamını qazanaraq bu etimadı əməli fəaliyyəti ilə doğruldub. YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müavini Rafael Gülməmmədov partiyanın təşkilatlanma istiqamətində fəaliyyətindən danışıb. O, YAP-ın uzun illər ərzində ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığını və cəmiyyətin etimadını qazandığını bildirib.

Konfransda YAP Səbail rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır

***Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Xocalı rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***




Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Konfransda YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyası bu gün ölkənin aparıcı siyasi qüvvəsi kimi fəaliyyətini uğurla davam etdirir. YAP ötən illər ərzində böyük inkişaf yolu keçərək xalqın etimadını qazanıb və aparıcı mövqeyə yüksəlib. Partiyanın yerli təşkilatları da dövlət siyasətinin təbliğində mühüm rol oynayır.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov qeyd edib ki, 44 günlük Vətən müharibəsi dövründə Xocalının bir sıra kəndlərinin işğaldan azad olunması ilə başlanan proses 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən antiterror tədbirləri nəticəsində Xocalının və bütün kəndlərinin tam azad olunması ilə başa çatmışdır. Bu gün isə Xocalıya qayıdış prosesi həyata keçirilir, genişmiqyaslı yenidənqurma işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, sosial obyektlər istifadəyə verilir.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov bildirib ki, müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Onun sözlərinə görə, son illərdə ölkəmizin əldə etdiyi mühüm nailiyyətlər, həyata keçirilən irimiqyaslı layihələr, sosial-iqtisadi inkişaf və beynəlxalq müstəvidə möhkəmlənən mövqelər Azərbaycanın tərəqqi yolunda inamla irəlilədiyini nümayiş etdirir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə bildirib ki, YAP-ın fəaliyyəti ölkəmizdə sabitliyin və milli həmrəyliyinin qorunmasında mühüm əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının sıralarında birləşən insanlar rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Konfransda YAP Xocalı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir






***Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Şamaxı rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hesabat məruzəsi ilə çıxış edən YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir müstəqil Azərbaycanın zəngin siyasi tarixinin ən mühüm səhifələrindən biri olduğunu söyləyib. Diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyası ölkəmizin hərtərəfli inkişafına mühüm töhfələr verir. O, həmçinin qeyd edib ki, rayon təşkilatı fəaliyyətini partiyanın VII Qurultayında qəbul edilmiş qərarlara, eləcə də Partiyanın Sədri İlham Əliyevin Qurultaydakı proqram xarakterli çıxışından irəli gələn tapşırıq və tövsiyələrə uyğun olaraq qurmuş, partiyanın Nizamnamə və Proqram tələbləri çərçivəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır. Ötən dövr ərzində rayon təşkilatı siyasi-ideoloji fəaliyyət istiqamətində işini daha da genişləndirərək təkmilləşdirmişdir.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov vurğulayıb ki, müasir, müstəqil Azərbaycanın inkişafı, tərəqqisi, tarixi uğurlar qazanaraq güclü və qüdrətli dövlətə çevrilməsi Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Natiq vurğulayıb ki, Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirlərində qazanılmış tarixi zəfərlər sayəsində Azərbaycan yeni tarixi mərhələyə qədəm qoyub. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təmin edilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkənin beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsi qarşıda duran mühüm hədəflərdəndir.

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva deyib ki, YAP-ın siyasi dinamizmini təmin edən mühüm amillərdən biri uğurlu gənclər siyasətinin həyata keçirilməsidir. Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Deputat qeyd edib ki, YAP Azərbaycanın davamlı, dayanıqlı və dinamik inkişafına ardıcıl töhfələr verməyi başlıca strateji vəzifə və fəaliyyət istiqaməti kimi müəyyənləşdirib. Həmçinin YAP-ın beynəlxalq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi siyasi önəm daşımaqla yanaşı ölkəmizin xarici əlaqələrinin daha da möhkəmlənməsinə əhəmiyyətli töhfədir.

Sonra Şamaxı rayon Ağsaqqallar Şurasının sədri Mayıl Alıcanov, ADPU Şamaxı filialının direktoru, partiya fəalı Tünzalə Yusifova, 26 saylı ərazi partiya təşkilatının sədri, Vətən Müharibəsi iştirakçısı Məhəmməd Məmmədov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə işin səmərəli təşkili və partiya üzvlərinin ictimai fəallığının artırılması istiqamətində görülən işlərdən danışıb, əldə olunan nəticələrin əhəmiyyətini qeyd edib.

Konfransda YAP Şamaxı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Güclü iradə, aydın məqsəd, parlaq gələcək!



**Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının IV konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində mühüm inkişaf yolu keçərək ölkənin aparıcı və mütəşəkkil siyasi qüvvələrindən birinə çevrildiyini vurğulayıb. Qeyd olunub ki, YAP öz fəaliyyətində milli maraqların qorunmasını və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirib.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün öz tarixinin ən qüdrətli və dinamik inkişaf edən dövrlərindən birini yaşayır. Həyata keçirilən siyasət ölkənin milli maraqlarına və dövlətçilik prinsiplərinə əsaslanır. Ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər ölkənin davamlı inkişafı və qarşıdakı hədəflərə inamla irəliləməsi üçün möhkəm zəmin yaradır.

YAP İdarə Heyətinin üzvü Rauf Əliyev diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyası tarixi sınaqlardan uğurla keçərək cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilib. Partiyanın 750 mindən çox üzvünün olması partiyaya göstərilən yüksək ictimai etimadın və xalqın partiyaya olan inamının bariz göstəricisidir.

Daha sonra SOCAR "28 May" NQÇİ-nin rəisi Ramin Quliyev, Pirallahı Tibb Mərkəzi PHŞ-nin direktoru Şöhrət Söyziyev, Pirallahı Rayon Ağsaqqallar şurasının sədri Əli Kərimov və şəhid anası Çiçək Nəbiyeva çıxış edərək Yeni Azərbaycan Partiyasının xalqın və dövlətimizin taleyində mühüm rol oynadığını və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərdiyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov isə Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra təşkilati sahədə görülən işlər, strukturun təkmilləşdirilməsi istiqamətində atılan addımlar və qarşıdakı dövr üçün müəyyənləşdirilən əsas prioritetlər barədə məlumat verib. O qeyd edib ki, partiyanın ictimai dayaqlarının möhkəmləndirilməsi, yerli təşkilatların fəaliyyətinin səmərəli təşkili, üzvlərlə işin keyfiyyətinin yüksəldilməsi və cəmiyyətlə əlaqələrin daha effektiv qurulması ilə sıx bağlıdır.



Konfransda YAP Pirallahı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Yardımlı rayon təşkilatının XI konfransı keçirilib



*Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Yardımlı rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.*

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Yardımlı rayon təşkilatının sədri Anar Alışov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, hesabat dövründə təşkilat qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində məqsədyönlü fəaliyyət göstərib, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Bildirilib ki, partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsi və partiyanın əsas prinsiplərinin təbliği istiqamətində ardıcıl və səmərəli tədbirlər həyata keçirilib.



Milli Məclisinin deputatı Məşhur Məmmədov Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan uğurlardan, Azərbaycan xalqının rifahının daha da yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin nəticələrindən danışıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ötən illər ərzində ölkənin ictimai-siyasi həyatında fəal iştirak edib, Azərbaycanın inkişafına və mühüm nailiyyətlər əldə etməsinə öz töhfəsini verib.

Daha sonra Yardımlı Rayon Heydər Əliyev Mərkəzinin baş fond mühafizi - direktor vəzifəsini müvəqqəti icra edən Zeynəb Məmişzadə, Şiləvəngə ərazi partiya təşkilatının sədri, Gavran kənd tam orta ümumtəhsil məktəbinin müəllimi Fərman Mustafayev ərazi partiya təşkilatlarının fəaliyyətindən, partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında fəal iştirakından söz açıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra fəaliyyətin daha səmərəli qurulması istiqamətində görülən işlərdən danışıb, rayon təşkilatının işini müsbət dəyərləndirib.

Konfransda YAP Yardımlı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib

# YAP zəngin inkişaf yolu keçib

Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Beyləqan rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Konfransda YAP Beyləqan rayon təşkilatının sədri Müşfiq Səfərov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, müasir müstəqil Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm uğurlara imza atır. Müxtəlif sahələrdə həyata keçirilən islahatlar, Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan beynəlxalq əhəmiyyətli layihələr ölkəmizin daha da güclənməsinə, iqtisadi və siyasi mövqelərinin möhkəmlənməsinə mühüm töhfə verir.



Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsində qazanılmış Qələbə və 2023-cü ildə keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin suverenliyinin tam bərpa edildiyini vurğulayıb. O qeyd edib ki, aparılan bərpa və quruculuq işləri ilə işğaldan azad olunmuş ərazilərimiz yenidən canlanır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov vurğulayıb ki, partiyanın milli maraqlara əsaslanan siyasi mövqeyi ölkənin davamlı inkişafına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə xidmət edir. O həmçinin qeyd edib ki, YAP Beyləqan rayon təşkilatı hesabat dövründə fəallığı ilə seçilib, qarşıya qoyulan vəzifələrin icrasında partiya üzvlərinin birgə fəaliyyəti mühüm rol oynayıb.

Rayon Ağsaqqallar Şurasının sədri, partiya veteranı Etibar İmanov qeyd edib ki, Azərbaycan xalqı tarixi Zəfərlərin qürurunu və sevincini yaşayır. Bu möhtəşəm nailiyyətlərin əldə olunmasında Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının mühüm rolu var.

YAP Mərkəzi Aparatın məsul əməkdaşı Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasi xəttindən, dövlətçilik ənənələrinin qorunub möhkəmləndirilməsindəki mühüm rolundan danışıb. Qeyd olunub ki, partiya ötən illər ərzində cəmiyyətin böyük etimadını qazanıb və bu etimadı ardıcıl, məqsədyönlü fəaliyyəti ilə doğruldub.

Konfransda YAP Beyləqan rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Bərdə rayon təşkilatının XII konfransı keçirilib





Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin müdrik ideyaları, uzaqgörən siyasəti və qətiyyətli mövqeyi sayəsində əsası qoyulmuş Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolu onun cəmiyyətdə böyük nüfuza sahib olduğunu bir daha təsdiqləyir. Qeyd edib ki, YAP Bərdə rayon təşkilatı partiyanın VII qurultayından ötən dövr ərzində ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin təbliği, milli-mənəvi dəyərlərin qorunması, gənclərin vətənpərvərlik ruhunun artırılması və digər istiqamətlərdə öz fəaliyyətini genişləndirərək davam etdirib.

Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev Yeni Azərbaycan Partiyasının əsas fəaliyyət istiqamətinin dövlətçiliyimizin qorunaraq möhkəmləndirilməsi, milli maraqların bütün sferalarda müdafiəsi və xalqımızın firavanlığının təmin edilməsi olduğunu diqqətə çatdırıb. Əlavə edib ki, Yeni Azərbaycan Partiyası ölkəmizdə gedən bütün ictimai-siyasi proseslərdə aparıcı siyasi qüvvə olmaqla yanaşı, regionun da ən böyük siyasi təşkilatıdır. Vidadi İsayev çıxışında Bərdə rayonunun dayanıqlı inkişafı istiqamətində görülən işlərdən və bu prosesdə YAP üzvlərinin aktiv rolundan danışıb.

Milli Məclisin deputatı Fatma Yıldırım Azərbaycanın son illərdə qazandığı tarixi nailiyyətlərdən, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpasından, qazanılan şanlı Zəfərdən sonra ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasından ətraflı bəhs edib. Vurğulayıb ki, əldə olunan uğurlar Ulu Öndər Heydər Əliyevin parlaq ideyaları və müəyyənləşdirdiyi uzaqgörən strategiyanın Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə xüsusi dinamizmlə həyata keçirilməsinin nəticəsidir.

Sonra Bərdə rayon Ağsaqqallar Şurasının sədri, partiya veteranı Yaşar Zamanov, partiya fəalı, Qaradəmirçi kənd ərazi partiya təşkilatının sədri Sənan Zamanov, "ASAN Xidmət H.Əliyev prospekti 89" ərazi partiya təşkilatının sədri İlahə Quliyeva çıxış ediblər.

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının baş məsləhətçisi Rəşad Abbaszadə partiyanın VII qurultayından ötən müddət ərzində görülən işlərdən, beynəlxalq əlaqələrinin inkişafından, yerli təşkilatların strukturlarının yenidən formalaşmasından, fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsindən söz açıb.

Konfransda YAP Bərdə rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirib.

# YAP yeni dövrün çağırışlarına uyğun olaraq fəaliyyətini davam etdirir




***Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) İmişli rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev hesabat məruzəsi ilə çıxış edib. O diqqətə çatdırıb ki, Azərbaycanın XX əsrin sonlarında yaşadığı mürəkkəb və taleyüklü dövrdə, dövlətçiliyimizin ağır sınaqlarla üzləşdiyi bir vaxtda Ümummilli Lider Heydər Əliyevin öndərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurətdən irəli gəlmiş və xalqımızın gələcək inkişaf yolunu müəyyənləşdirmişdir. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və ardıcıl siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Əldə edilən siyasi və diplomatik uğurlar Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun daha da yüksəlməsinə zəmin yaradır.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev ölkədə həyata keçirilən genişmiqyaslı islahatlar və quruculuq işlərindən danışaraq, regional inkişaf proqramlarının İmişli rayonunda da uğurla həyata keçirildiyini vurğulayıb. O, həmçinin partiya fəallarının bu sahədə görülən işlərə dəyərli töhfələr verdiklərini xüsusi qeyd edib.

Milli Məclisin deputatı Səyyad Aran bildirib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən dövlətçilik prinsiplərinə, milli maraqlara və xalqın rifahına xidmət edən siyasi xəttini ardıcıllıqla davam etdirir. O qeyd edib ki, partiya azərbaycançılıq ideologiyasını fəaliyyətinin əsas istiqamətlərindən biri kimi rəhbər tutmaqla milli birlik və həmrəyliyin möhkəmləndirilməsinə, cəmiyyətin müxtəlif təbəqələri arasında sağlam ictimai münasibətlərin formalaşmasına mühüm töhfələr verir.

Sonra partiya veteranı Şahsuvar Əmirahov, gənc partiya fəalı Nuray İmanova və "Ə.Əliyev" ərazi partiya təşkilatının sədri



İsrafil Məmmədov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev vurğulayıb ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən qarşısına qoyduğu məqsəd və vəzifələrin həyata keçirilməsi istiqamətində ardıcıl fəaliyyət göstərərək xalqın etimadını qazanıb. O, partiyanın bundan sonra da qarşıda duran bütün vəzifələri uğurla yerinə yetirmək əzmində olduğuna əminlik ifadə edib.

Konfransda YAP İmişli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycançılıq milli həmrəyliyin möhkəm təməlidir






Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Lənkəran rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev hesabat məruzəsində rayon təşkilatının fəaliyyəti və qazandığı uğurlar barədə ətraflı məlumat verib. O qeyd edib ki, partiyanın VII qurultayı müasir çağırışlara uyğun fəaliyyətin gücləndirilməsi baxımından mühüm mərhələ olub. Natiq vurğulayıb ki, Azərbaycanın özünü güclü və qüdrətli dövlət kimi təsdiq etməsində, regional güc mərkəzinə – bölgənin lider dövlətinə çevrilməsində, eləcə də Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərlə tarix yazaraq adını əbədi olaraq tarixə həkk etməsində Yeni Azərbaycan Partiyasının müstəsna rolu və dəyərli töhfəsi olmuşdur.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov qeyd edib ki, Yeni Azərbaycan Partiyası ötən illər ərzində dövlətçilik düşüncəsinin, milli həmrəyliyin və xalqın gələcəyə olan inamının başlıca daşıyıcılarından birinə çevrilərək özünü nüfuzlu siyasi qüvvə kimi təsdiqləmişdir. O bildirib ki, Azərbaycan Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Natiq həmçinin Lənkəran şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərindən, sosial-iqtisadi layihələrdən və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən danışaraq, bu sahədə YAP üzvlərinin fəal iştirakını xüsusi vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İskəndərov çıxışında Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi şərəfli inkişaf yolundan və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsindəki əvəzsiz rolundan bəhs edərək, Ulu Öndər Heydər Əliyevin parlaq ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib. Natiq qalib Azərbaycanın yaratdığı yeni reallıqlardan, regionda yeni sülh və təhlükəsizlik arxitekturasının formalaşması istiqamətində atılan mühüm addımlardan geniş danışaraq, ölkəmizin orta güc statusuna yüksəlməsinin əhəmiyyətini diqqətə çatdırıb. Qeyd edib ki, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycan qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrini uğurla inkişaf etdirməkdədir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Cavanşir Paşazadə Yeni Azərbaycan Partiyasının Azərbaycan dövlətçiliyinin inkişafında xidmətlərinin danılmaz olduğunu və partiyanın bu istiqamətdə gördüyü işlərin cəmiyyət tərəfindən yüksək qiymətləndirildiyi diqqətə çatdırıb. O həmçinin Vətən müharibəsində qazanılan şanlı Zəfər və bir gündən az davam edən antiterror əməliyyatı ilə ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunmasının, azad olunan ərazilərimizdə aparılan böyük bərpa və quruculuğu xalqımızın milli iradəsinin və dövlətimizin gücünün göstəricisi olduğunu söyləyib.

Sonra Lənkəran Dövlət Universitetinin sosial məsələlər üzrə prorektoru, ərazi partiya təşkilat sədri Ramiz Şəmmədova, Lənkəran Dövlət Universiteti nəzdində Sosial Aqrar-Texnoloji Kollecin direktoru, ərazi partiya təşkilat sədri Leyla İbrahimova, Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lənkəran Rayon Təhsil Sektorunun müdiri, ərazi partiya təşkilatının sədri Ağamməd Şənmədova çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən dövr ərzində görülən işlərdən danışaraq partiyanın Proqram və Nizamnamə tələblərinə uyğun olaraq yerli təşkilatların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində sistemli işlərin həyata keçirildiyini vurğulayıb.

Konfransda YAP Lənkəran rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.





# Zəfər yolu yeni qələbələr vəd edir

***Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Suraxanı rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda xalqın istək və arzularının nəticəsi olaraq tarixi zərurətdən yaranıb. YAP bu günə qədər şərəfli yol keçərək ölkəmizin ən güclü siyasi qüvvəsinə çevrilib. O qeyd edib ki, rayon təşkilatı fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun quraraq rayonun ictimai-siyasi həyatında fəal iştirak edib.

Suraxanı Rayon İcra Hakimiyyətinin Başçısı Adil Əliyev vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları əsasında formalaşan, tarixin bütün sınaqlarından uğurla çıxmış və dövlətçilik ənənələrinin inkişafına misilsiz töhfələr vermiş Yeni Azərbaycan Partiyasının sıraları Prezident İlham Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində gündən-günə genişlənməkdədir. Müzəffər Ali Baş Komandanımızın liderliyi, xalqımızın birliyi, ordumuzun rəşadəti sayəsində əldə edilən şanlı Zəfər xalqımızın yaddaşında əbədi yaşayacaq və gələcək nəsillər üçün də qürur mənbəyi olacaq. Ərazi bütövlüyü və suverenliyini tam bərpa etmiş Azərbaycan bu gün azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərini sürətlə davam etdirir, şəhər və kəndləri yenidən qurur. Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlər doğma yurdlarına geri dönür.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva Azərbaycanın son illərdə əldə etdiyi böyük uğurlara, tarixi Zəfərə və ölkəmizin beynəlxalq nüfuzunun artmasına diqqət çəkib. Vurğulayıb ki, Azərbaycan təkcə regionda deyil, ümumilikdə dünyada çəkisi və rolu artan, bütün sahələrdə sürətli tərəqqiyə nail olmuş, öz milli maraqlarının müdafiəsində və tarixi ədalətin bərpa edilməsində uğur qazanmış dövlətdir. Uzun illərdir ki, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bu imicini getdikcə daha da möhkəmləndirir, qlobal proseslərdə söz sahibinə çevrilir.

YAP Mərkəzi Aparatı Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyası ideoloji fəaliyyət istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsinin, milli dövlətçilik dəyərlərinin, eləcə də Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğinə xüsusi diqqət yetirir. YAP Suraxanı rayon təşkilatı bu prosesdə fəallığı ilə seçilir.

Sonra 1 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkim səlahiyyətlərinin icraçısı, ərazi partiya təşkilatının sədri Arzu Hacı-zadə, 84 nömrəli tam orta ümumtəhsil məktəbinin direktor müavini, ərazi partiya təşkilat sədrinin müavini Fidan Həbibova, Vətən Müharibəsi şəhidi Ruhid İslamlının atası, partiya fəalı Uğur İslamlı, Vətən Müharibəsi şəhidi Osman Manafovun həyat yoldaşı, partiya fəalı Aysel Manafova çıxış ediblər. Konfransda YAP Suraxanı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP milli maraqları daim üstün tutur

***Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Saatlı rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni



səsləndirilib.

Konfransda YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rol oynadığını, dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə mühüm töhfələr verdiyini vurğulayıb. O, Saatlı rayon təşkilatının fəaliyyətini YAP-ın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun qurduğunu diqqətə çatdırıb.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. O bildirib ki, məhz uğurlu strategiyanın nəticəsi olaraq Azərbaycanın iqtisadi və siyasi qüdrəti artıb, beynəlxalq müstəvidə mövqeləri möhkəmlənib.

Milli Məclisin deputatı Əziz Ələkbərli YAP-ın daim xalqın mənafeyindən çıxış etdiyini, siyasi sistemin aparıcı qüvvəsi kimi ölkəmizə mühüm nailiyyətlər qazandırdığını deyib. O qeyd edib ki, partiya Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə yorulmadan fəaliyyət göstərir.

Milli Məclisin deputatı Səyyad Aran partiyanın yaranma tarixindən, keçdiyi inkişaf yolundan, cəmiyyətdə artan rolundan geniş bəhs edib. O, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu, zəngin siyasi və dövlətçilik təcrübəsinə söykənən Yeni Azərbaycan Partiyasının ölkədə ən güclü, monolit siyasi təşkilat olduğunu deyib.

YAP Saatlı rayon təşkilatının sabiq sədri, partiya veteranı Lütvəli Şıxəliyev partiyanın yerli təşkilatlarının dövlət siyasətinin təbliğində mühüm rol oynadığını deyib. Həmçinin qeyd olunub ki, Yeni Azərbaycan Partiyası milli maraqları daim üstün tutaraq ölkəmizin inkişafında müstəsna rol oynayır. YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının bundan sonra da Azərbaycanın inkişafına və qarşıya qoyulan yeni hədəflərin reallaşdırılmasına layiqli töhfələr verəcəklərinə əminliyini ifadə edib.

Konfransda YAP Saatlı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Xalq-iqtidar birliyinin əsasında qarşılıqlı inam dayanır



***Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Lerik rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycanın əldə etdiyi uğurlardan, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. Ümummilli Lider Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinə istinad edən Malik Mirzəyev partiyanın nəinki ölkəmizdə, həm də regionda ən güclü siyasi təşkilat olduğunu deyib.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, yeni reallıqlar yaranıb, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Azərbaycanın uğurlarından geniş bəhs edən Əkbər Abbasov ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasını müasir tariximizin ən mühüm tarixi nailiyyəti kimi qiymətləndirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov Yeni Azərbaycan Partiyasının xalqın inam və etimadını layiqincə doğrultduğunu, Azərbaycanın inkişafına müstəsna töhfələr verdiyini deyib. O əminliklə ifadə edib ki, siyasi sistemin aparıcı qüvvəsi olan YAP ölkəmizə bundan sonra da mühüm nailiyyətlər qazandırmaq əzmindədir.

Rayon Ağsaqqallar Şurasının sədri Elxan Qənbərov, Lerik şəhər ərazi partiya təşkilatının sədri Gültəkin Şıxəliyeva, rayon peşə məktəbinin müəllimi, Birinci Qarabağ müharibəsi veteranı, şəhid ailəsi üzvü



Namiq Bağışov çıxışlarında Yeni Azərbaycan Partiyasının əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazandığını deyiblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra partiya işinin daha səmərəli qurulması istiqamətində görülən işlərdən danışıb. Konfransda YAP Lerik rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.






# YAP ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayır



Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Kəlbəcər rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, rayon təşkilatı hesabat dövründə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsi diqqət mərkəzində saxlanılan əsas məsələlərdən olub.

Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev bildirib ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Kəlbəcər rayonunda da genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Azərbaycanın qazandığı tarixi qələbələr nəticəsində uzun illər yurd həsrəti ilə yaşayan kəlbəcərlilər də doğma torpaqlarına qayıdırlar.

Milli Məclisin deputatı Kamran Bayramov partiyanın ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycana möhtəşəm nailiyyətlər qazandırır.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsindən və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlərdən danışıb. Onun sözlərinə görə, ölkəmizin ərazi bütövlüyünü və suverenliyinin bərpası dövlətçilik tariximizin ən möhtəşəm uğurlarındandır.

Partiya veteranı Əli Bağırov və partiya fəalı Rəşanə Mamedova hesabat məruzəsi ilə bağlı fikirlərini bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə rayon təşkilatının müasir çağırışlara uyğun olaraq fəaliyyət göstərdiyini deyib, qarşıda duran vəzifələrdən bəhs edib.

Konfransda YAP Kəlbəcər rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP İsmayıllı rayon təşkilatının XI konfransı keçirilib







Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) İsmayıllı rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycanın davamlı inkişafında Yeni Azərbaycan Partiyasının müstəsna rolundan danışıb. 2021-ci il martın 5-də keçirilən VII qurultayın partiyanın müasir çağırışlara uyğun olaraq fəaliyyətinin gücləndirilməsi baxımından mühüm mərhələ olduğunu deyən Zaur Muradov İsmayıllı rayon təşkilatının fəaliyyətinin də məqsədyönlü şəkildə təşkil edildiyini vurğulayıb.

Çıxış edən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov Yeni Azərbaycan Partiyasının daim xalqa xidmət prinsipini əsas götürdüyünü, əməli fəaliyyəti ilə böyük rəğbət qazandığını deyib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail olmasından ətraflı bəhs edib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Ulu Öndərin Azərbaycan xalqına siyasi mirası olan Yeni Azərbaycan Partiyasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlər qazandığını, şanlı tarix yazdığını deyib. O qeyd edib ki, bu gün Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini təmin etmiş güclü dövlət kimi çıxış edir.

İsmayıllı Rayon Mərkəzi Xəstəxanası ərazi partiya təşkilatının sədri Vidadi Rəhimov, İsmayıllı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi ərazi partiya təşkilatının sədri Xuraman Qurbanova, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsinin sədri Hafiz Kərimov və İvanovka kənd ərazi partiya təşkilatının sədri Oleq Radayev çıxış edərək YAP-ın bu gün siyasi sistemin aparıcı qüvvəsi kimi ölkəmizə mühüm nailiyyətlər qazandırdığını deyiblər.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev bildirib ki, YAP İsmayıllı rayon təşkilatı qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirib. O, Yeni Azərbaycan Partiyasının qazandığı uğurlarla yanaşı, qarşıda dayanan vəzifələrdən də ətraflı bəhs edib.

Konfransda YAP İsmayıllı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Azərbaycan Türk dünyası və İslam aləmində birləşdirici gücə çevrilib

***Mətləb Salahov: “Reallıq odur ki, hazırda Türkdilli ölkələr və İslam dünyası arasında çevik əməkdaşlığın qurulmasında rəsmi Bakı lokomotiv mövqeyə sahibdir”***



***“Prezident İlham Əliyevin Bakıda beynəlxalq konfransların iştirakçıları ilə görüşündə səsləndirdiyi fikirlər kifayət qədər aktual mövzuları və həm Türk dünyası, həm də İslam dövlətləri ilə münasibətlərin gələcək perspektivlərini əhatə edir. Dövlət başçısının həmrəylik yönündəki mesajları artıq rəsmi Bakının Türk və İslam dünyası üçün birləşdirici və lokomotiv ölkə olduğuna dair aydın təsəvvür yaradır.***

Üstəlik, ölkəmizdə davamlı şəkildə keçirilən Türk Dövlətləri Təşkilatının Zirvə görüşləri və konfransları, ilk növbədə, Azərbaycanın artıq bu təşkilatın lokomotiv qüvvə funksiyası daşıdığına bariz nümunədir. Çünki davamlı olaraq bu təşkilatla bağlı mühüm görüşlərin və həlledici qərarların məhz Azərbaycanın ev sahibi olduğu toplantılarda baş tutmasını, eyni zamanda rəsmi Bakının təşəbbüsü ilə qəbul edilən qərarları da nəzərə alsaq, o zaman TDT üçün hərəkətverici qüvvə olaraq Azərbaycanı göstərmək tam haqlı mövqe sayılmalıdır. Bu, sadəcə təkzibedilməz faktdır.”

Bu fikirləri S A-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, türk dövlətləri arasında əməkdaşlığın genişlənməsi regionda geosiyasi və geoiqtisadi güc balansını üzv və müşahidəçi dövlətlərin lehinə dəyişməkdədir. Artıq bölgəyə maraq göstərən xarici qüvvələr əvvəllər olduğu kimi, tək bir dövlətlə deyil, artıq bir dövlətlər ittifaqı ilə hesablaşmaq zərurəti ilə qarşılaşıblar.

“Bu faktın özü TDT-nin ciddi qüvvə kimi formalşmağa başladığını göstərir. Amma əsas məsələ bəzi fərqliliklərə baxmayaraq, Türk dövlətləri arasında həmrəylik və ortaq fəaliyyətin daha da gücləndirilməsinə nail olmaqdır. Bu, olduqca aktual məsələdir. Çünki bəzi xarici qüvvələr Türk dövlətləri arasında fikir ayrılığı yaratmaq və birliklərini sarsıtmaq üçün fəaliyyətə keçiblər. Təşkilatın güclənməsi və təhlükəsizliyi üçün daxili birliyi qorumaq və üzv ölkələr arasında iqtisadi bağları sıxlaşdırmaq ən vacib işdir. Bu işi uğurla sonlandırmaq mümkün olacaqmı? - onu da zaman göstərəcək”.

***Afət Tahirqızı***

# Avtomobillərdə hansı təhlükəsizlik vasitələri olmasa cərimələnərik?

***Nəqliyyat vasitələrinin texniki vəziyyəti ilə bağlı tələblərin pozulmasına görə sürücülər inzibati məsuliyyət daşıya bilərlər. Bu sözləri SİA-ya Vəkil Səma Əhmədova deyib. Onun sözlərinə görə, İnzibati Xətalar Məcəlləsinin 342.2-ci maddəsinə əsasən, tormoz sistemi və ya sükan idarə mexanizmi nasaz olan və nasazlığın aradan qaldırılması mümkün olmayan nəqliyyat vasitəsinin istismarına, normativ tələblər pozulmaqla avadanlığın quraşdırılmasına və ya dəyişdirilməsinə, eləcə də nəqliyyat vasitəsinin konstruksiyasına müəyyən edilmiş qaydalara zidd dəyişikliklər edilməsinə görə 150 manat məbləğində cərimə tətbiq olunur.***



VƏKİL AÇIQLADI

Həmçinin nəqliyyat vasitəsinin ban şüşələrinə qanunla tətbiqinə icazə verilməyən örtüklərin çəkilməsi də 342.2-ci maddə ilə məsuliyyət yaradır. Vəkil qeyd edib ki, İnzibati Xətalar Məcəlləsinin 356.1-ci maddəsinə əsasən, xüsusi komplektləşdirilmiş ilk tibbi yardım qutusu ilə təchiz olunmayan nəqliyyat vasitəsini idarə etməyə görə 10 manat məbləğində cərimə nəzərdə tutulur.

***Ayşən Vəli***





**Mətanət Məmmədova**

# Ay valideyn, bir başını qaldır, bir uşaq otağına keç!

***Valideyni məsuliyyətsiz, diqqətsiz olan uşaqlara çox yazığım gəlir. Dəfələrlə söyləmişəm bunu. Təəssüf ki, bu pak, sevgiyə, diqqətə ehtiyacı olan, öz yolunu seçə bilməyən, nəzarətsiz qaldıqca həyat onun üçün müxtəlif təhlükə mənbəyinə çevrilən uşaqları Ulu Tanrı belə valideynlərə də verir. Və bu valideynlər həmin uşaqları öz məsuliyyətsizliyinin qurbanına çevirir. Mən belə uşaqları “Allah ümidinə buraxılmış uşaqlar” adlandırıram.***

Allahsa sadəcə onları qoruyur, təhlükədən uzaq tutur. Lakin günboyu əllərindən düşməyən telefonu onlardan ala bilmir. Saatlarla əyləşdikləri kompüter qarşısından qaldıra bilmir. Vaxtaşırı oynadıqları mənbəyi bilinməyən oyunlardan uzaqlaşdıra, oyun zallarından ayaqlarını kəsə bilmir.

Bütün bunlar valideynin vəzifələridir. Valideyn olmadan düşünməyə ehtiyacı olan, bu böyük məsuliyyəti üzərinə götürə biləcəyinə qərar verən insanın vəzifələridir. Görünür, belələri sadəcə ailə quran, dünyaya gətirdiyi uşaq barədə əsla fikirləşməyən valideynlərdir ki, onların övladları hər gün rəqəmsal dünyanın qurbanına çevrilir, telefona zilləşən gözləri korlaşır, kompüter qarşısında əyləşməkdən onurğa sütunu donqarlaşır.

Valideyn isə öz işinin arxasındadır. Nə bir kərə başını qaldırıb uşağın nə işlə məşğul olduğuna baxır, ya da bir kərə uşaq otağına keçib “övladım burada nə işlə məşğuldur?”,-deyir. Müasir dövrdə sanki bir öhdəlikdir, uşaq dünyaya gəldi, danışmağa başladı, valideyn telefonunu uşağın əlinə verir, ağlayan uşaq telefonla sakitləşdirilir, yeməkdən imtina edən uşaq telefon hesabına qeyri-ixtiyari ağzını açır, bir qədər böyüdükdən sonra isə valideyn bir telefon alıb ona verir. Bu, sanki müasir dövrün valideynlik borcudur.

Uşaq məktəbə telefonla gedir, dərsi pozur. Sosial şəbəkələrdə gəzir, qarşısına çıxan bütün kontentləri görür. Burada müxtəlif çağırışlara da qoşulur. Bir də baxırsan ki, uşaq əldən gedib, valideynin isə bundan əsla xəbəri yoxdur. Çünki valideyn yerində olmayan valideyndir. Uşaq üçün nəyin normal, nəyin anormal olduğunu anlamayan, amma guya övladını əzizləyən valideyndir. Lakin bircə dəfə “əzizim əzizdir, tərbiyəm ondan da əzizdir” misalını xatırlamaq istəməyən valideyndir.

Belələri nə bircə dəfə başını qaldırıb ətrafı əsl valideyn gözü ilə seyr edir, nə də bircə dəfə uşaq otağından bütün evə yayılan vahiməli səsə doğru gedir. O vahiməli səs nədir, bilirsinizmi? Uşaqlarımıza proqramlaşdırılmış şəkildə təqdim edilən oyunlar, filmlərdir. O filmlər ki, kadrları vəhşət və dəhşət saçır, qan su yerinə axır, insan insanı baltalayır, qılıncdan keçirir, başını kəsir, daha nələr, nələr...

Mənim övladım nə ilə məşğuldur o otaqda, bunu aradabir fikirləşin, əziz valideynlər. Mənim uşağım saatlardır, oyun zalına yollanıb, bir zəng vurum, görüm, niyə gəlmir, başı nəyə qarışıb,- deyə fikirləşin, əziz valideynlər. Körpələrinizi telefonla yedirəndə, əllərinə telefon verib onları işıq şüalarına məruz qoyanda, səhv etdiyinizi bircə dəfə anlayın, əziz valideynlər.

Sabah övladınız təkliyə çəkiləndə, depressiyaya məruz qalanda, intihara can atanda, “bu uşaq niyə belə etdi”,- deyəcəksiniz. Bəli, heç düşünmədən belə deyəcəksiniz. Heç bircə dəfə də özününzü günahkar hesab etməyəcəksiniz. Bu günahı kənarda axtarmağa başlayacaqsınız: müəllimi suçlayacaq, sinif yoldaşlarından şübhələnəcək, dostları hədəfə alacaqsınız. Ey günahkar valideyn, bir özünə nəzər sal. Ətrafa təkcə baxma, həm də görməyə çalış.

Dünənki hadisə bütün belə valideynləri silkələməlidir. Onlarla “Roblox” kimi oyun platforması var. Hər biri, inanın, psixoloji vəziyyətə mənfi təsir göstərən zərərli məzmun və çağırışlarla doludur. Uşaqları nəzarətsiz qoymayın, onlar tez təsirə düşə bilirlər. Nə üçün məsuliyyətsizliyinizdən övladınızı itirəsiniz ki?..

Bizim dövlət bizi özümüzdən çox düşünür. Ötən aylarda “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklərə əsasən gələn ildən 16-18 yaş arası uşaqların sosial media və rəqəmsal platformalardan istifadəsi zamanı valideyn razılığı və nəzarəti mexanizmləri tətbiq olunacaq. Belə ki, 16-18 yaşlı yeniyetmələrin fərdi rəqəmsal hesablarında qanuni nümayəndələrin (valideynlərin) aktiv nəzarətini təmin edən funksionallıqlar yaradılır; sosial şəbəkələr və rəqəmsal platformalarda istifadəçilərin yaşını yoxlamaq üçün müvafiq texniki üsullar tətbiq edilir; ”İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və ”Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunların tələblərinə, o cümlədən 16–18 yaşlıların hesablarına nəzarət və yaş məhdudiyyəti qaydalarına əməl etməyən platformalar üçün İnzibati Xətalar Məcəlləsində məsuliyyət tədbirləri müəyyən edilir.

Uşaqlar dövlət üçün vətəndaş, ölkənin gələcəyidirsə, valideyn üçün uşaq bunlarla yanaşı, həm də onun canından bir parça, gözünün nurudur. Belə isə aradabir başınızı yuxarı qaldırın. Vaxt yoxdur, deyirsinz? Sosial şəbəkələrdə dostlarla, rəfiqələrlə söhbətlərdən, serial izləməkdən, çoxsaylı rəqəmsal qruplarda boş-boş müzakirələrdən vaxt kəsin, uşaqlarınıza ayırın. Onların sizə ehtiyacı var!

# Müasir hərb tariximizdə ANTİTERROR TƏDBİRLƏRİ



## Prezident İlham Əliyev: "Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı"

***Üç il bundan əvvəl sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısı alınaraq Ermənistan silahlı qüvvələrinin qalıqları tərk-silah edildi. Həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində ordumuz qarşısındakı bütün vəzifələri yerinə yetirdi. Qondarma dağlıq Qarabağ rejimi özünü buraxdığını elan etdi. Bununla da Azərbaycanın bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi."***

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordunu darmadağın edərək torpaqlarımızı azad etdi və beləliklə, ədalət, beynəlxalq hüquq bərpa olundu. Siyasi gücə, iradəyə malik Prezident İlham Əliyevin Sərkərdəlik məharəti ilə "Dəmir yumruğ"un zərbəsi nəticəsində əldə olunan Zəfər Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı və möhtəşəm qələbəmiz dünya hərb tarixinə yeni səhifələr yazdı. Xalq-iqtidar həmrəyliyinin mövcudluğu və güclü ordumuz böyük qələbəmizi şərtləndirən amillər sırasındadır. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, dövlət başçımızın qətiyyəti, siyasi iradəsi, prinsipial mövqeyi ölkəmizə qarşı olan hücumları darmadağın etdi və ağır məğlubiyyətə uğrayan düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir neçə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan".

2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanatın ən mühüm şərtlərindən biri erməni silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazilərindən çıxarılması idi. Tarix boyunca riyakarlığı, təcavüzkarlığı ilə tanınan Ermənistan yenidən öz sözünün üstündə durmadı və təxribatlarına davam etdi. Belə ki, 2021-ci ildə Laçın sərhəd-buraxılış məntəqəsi qurulanadək Ermənistanda istehsal olunmuş minalar Azərbaycanın Qarabağ bölgəsinə gətirilərək, kütləvi şəkildə müxtəlif yerlərdə basdırılmışdır. Müharibədən sonrakı dövrdə Azərbaycan tərəfi beynəlxalq platformalarda ermənilərin ərazilərimizdə mina terroruna və digər təxribatlarına lazımi hüquqi qiymət verilməsini dəfələrlə tələb etsə də, minaların basdırılması və mina xəritələrinin təqdim edilməməsi ilə bağlı Ermənistana kifayət qədər təzyiq göstərmədi.

### AZƏRBAYCAN ORDUSUNUN "QİSAS" ƏMƏLİYYATI

Vətən müharibəsindən sonra ən qanlı toqquşma isə 2022-ci ilin 12-14 sentyabr tarixlərində baş vermişdir. Bu döyüşlərin səbəbi isə Ermənistan silahlı qüvvələri bölmələrinin 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməsi idi. Öz çirkin siyasətindən əl çəkməyən Ermənistan 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində təxribatlar törətdi. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərmişdi. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürdü. Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini bildirmişdir. Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması ölkəmizin növbəti uğuru kimi tarixə yazıldı.

Erməni separatçılarının quldur dəstələrinin üç il əvvəl sentyabrın 19-da törətdikləri xain terror aktı xalqımızı dərindən sarsıtdı. Azərbaycan Ordusunun elə həmin gün Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa zamanda uğurla başa çatması isə bütün sülhsevər insanları sevindirdi. Azərbaycan Ordusunun bir sutkada qazandığı qələbə nadir tarixi hadisədir. Azərbaycan tərəfi məlum Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması məqsədi ilə lokal xarakterli antiterror



tədbirlərinə başladı. Beləliklə, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Azərbaycan Ordusunun 2023-cü il sentyabrın 19-20-də keçirdiyi birgünlük antiterror tədbirləri nəticəsində Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyi tam bərpa olundu. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 2023-cü il sentyabrın 19-da yaydığı məlumatda Azərbaycan dövlət adından antiterror tədbirlərinin dayandırılması üçün 3 şərt açıqlamışdı: qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Əks-təqdirdə, lokal antiterror tədbirləri sona qədər davam etdiriləcək. Sentyabrın 21-də isə Yevlax şəhərində Azərbaycan Respublikası Prezidentinin nümayəndəsi ilə onların görüşü baş tutdu. Rəsmi məlumata görə, bu görüşdə qarşı tərəfə bir sıra mesajlarla yanaşı, Azərbaycan Respublikası Konstitusiyasını qəbul edib, onun normalarına uyğun yaşayacaqları təqdirdə, çoxmillətli, çoxkonfessiyalı dövlətin bərabərhüquqlu üzvünə çevriləcəkləri aydın şəkildə çatdırılıb. Ermənistanın məğlub ölkə kimi imza atdığı üçtərəfli Bəyanatın müddəalarına məhəl qoymaması, hərbi təxribatlarını davam etdirməsi, işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə ciddi şəkildə mane olmağa çalışması antiterror tədbirlərini qaçılmaz etdi.

### "UNUTMASINLAR Kİ, DƏMİR YUMRUQ YERİNDƏDİR"

Nəzərə almaq lazımdır ki, antiterror tədbirləri ağır relyefə malik olan dağlıq ərazilərdə gerçəkləşdirildi. Separatçı rejimin belə bir relyefdə hərbi arsenalını cəmi 24 saat ərzində təslim etdirmək böyük peşəkarlıq tələb edirdi. Azərbaycan Ordusu belə bir peşəkarlığı nümayiş etdirə bildi və 44 günlük Vətən müharibəsindən sonra dünyaya yeni nümunə təqdim etdi. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da məlum şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Şərtlərə əsasən, Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyub, döyüş mövqelərindən və hərbi postlardan çıxdı, tam şəkildə tərksilah olundular. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, müdrik siyasətinin nəticəsidir ki, Azərbaycan tarixinə böyük uğurlar və nailiyyətlər həkk olunur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, müharibə onların yadından çıxmamalıdır: "Unutmasınlar ki, dəmir yumruq yerindədir".

Azərbaycan ərazi bütövlüyünü, bütün ərazilərində konstitusion hüquqlarını bərpa etdi. Qarabağda qeyri-qanuni xunta rejimi məhv edilərək, əsas separatçı liderlər həbs edildi. Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda dalğalanır. Bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Azərbaycanın 44 günlük müharibədə qələbəsinin legitimliyinin dünyanın bütün geosiyasi qütbləri tərəfindən qəbul edilməsi, işğaldan azad etdiyimiz ərazilərimiz üzərində suveren hüquqlarımızın bərpasının beynəlxalq birlik tərəfindən tanınması, haqq işimizə əvvəlkindən daha çox dəstək verilməsi, Prezident İlham Əliyevin həm müharibə, həm də postmüharibə dövründə həyata keçirdiyi siyasətin nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Səsimizi də oğurlaya bilərlər: süni intellekt dələduzluğun yeni üsulunu necə dəyişir?





***Süni intellektin inkişafı ilə insan səsini təqlid etmək əvvəlki kimi mürəkkəb texniki proses deyil. Bu texnologiyanın imkanlarından yaradıcı məqsədlərlə yanaşı, kiberdələduzluqda da istifadə olunur. Azərbaycanda da rəsmi qurumlar son aylarda süni intellektlə səs təqlidi və biometrik məlumatların ələ keçirilməsi ilə bağlı xəbərdarlıqlar yayıb.***

ARAŞDIRMA

Azərbaycan Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin nümayəndəsi Ramil Əşrəfov 2026-cı ilin martında bildirib ki, Azərbaycanda müşahidə olunan dələduzluq üsullarından biri süni intellekt vasitəsilə səsin təqlid edilməsidir. Onun sözlərinə görə, dələduzlar əvvəlcə şəxsin səsini əldə edir, daha sonra xüsusi süni intellekt proqramlarından istifadə etməklə həmin səsi imitasiya edə bilirlər.

SİA mövzu ilə bağlı araşdırma edib.

Bu isə klassik telefon dələduzluğunun formasını dəyişir. Əvvəllər zəng edən şəxsin səsinin tanış olub-olmaması müəyyən qədər yoxlama vasitəsi idisə, indi səsin tanış gəlməsi artıq həmin şəxsin həqiqətən danışdığını sübut etmir.

## Səs necə əldə olunur?

İnsan səsinin nümunəsini əldə etmək üçün mütləq xüsusi və ya gizli üsul lazım deyil. Sosial şəbəkələrdə yayılan videolar, müsahibələr, canlı yayımlar və digər açıq mənbələrdəki səs yazıları potensial material ola bilər.

Azərbaycanın Elektron Təhlükəsizlik Xidməti də 2026-cı ilin mayında daha fərqli bir üsul barədə xəbərdarlıq edib. Qurum bildirib ki, naməlum şəxslər müxtəlif bəhanələrlə vətəndaşlardan telefonla kömək istəyərək onların səsini, üz görüntüsünü və bəzi hallarda toxunuş məlumatlarını əldə etməyə çalışa bilərlər.

Yəni risk yalnız sosial şəbəkədə paylaşdığımız videolarla məhdudlaşmır.

## Ən təhlükəli ssenari necə görünür?

Təsəvvür edək ki, bir şəxsə telefon gəlir.

Zəng edən şəxsin səsi onun oğlunun, qızının, həyat yoldaşının və ya başqa yaxın adamının səsinə çox oxşayır.

"Telefonumu itirmişəm", "qəza olub", "təcili pul lazımdır", "polisə düşmüşəm" kimi emosional və təcili vəziyyət yaradılır.

Belə məqamda əsas məqsəd insanın düşünməsinə vaxt qoymamaqdır. Çünki zəng edən şəxs qarşı tərəfə sakit şəkildə qərar vermək imkanı vermək əvəzinə, onu təcili hərəkətə sövq edir.

Burada əsas problem texnologiyanın yalnız səsi təqlid etməsi deyil. Texnologiya insanın ən güclü emosional bağlarından birinin – yaxın adamın səsinə olan etibarın – özünə qarşı istifadə olunmasına şərait yaradır.

## Bəs süni intellektlə hazırlanmış səsi necə müəyyən etmək olar?

Ən vacib məqam budur: yalnız səsə güvənmək olmaz.

Zəng edən şəxs pul istəyirsə, ilk addım həmin şəxslə başqa kanaldan əlaqə yaratmaqdır. Məsələn, telefon danışığını dayandırıb həmin şəxsin əvvəlcədən məlum olan nömrəsinə zəng etmək və ya ailə üzvlərindən başqa biri ilə əlaqə saxlamaq mümkündür.

Ailə daxilində əvvəlcədən yalnız yaxınların bildiyi bir kod sözünün müəyyənləşdirilməsi də belə vəziyyətlərdə əlavə yoxlama üsulu ola bilər.

Ən əsası isə zəng zamanı verilən təlimata avtomatik əməl etməməkdir.

## Məsələ artıq təkcə səsdən ibarət deyil

Süni intellektlə hazırlanmış saxta görüntü və səslər – deepfake – Azərbaycanda da ayrıca hüquqi məsələ kimi gündəmə gəlib.

2026-cı ilin iyununda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini Allahverən İsmayılov bildirib ki, şəxsin razılığı olmadan onun görüntüsü və səsindən istifadə edilməklə süni intellekt vasitəsilə saxta məzmun hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır.

Bundan əvvəl isə 2026-cı ilin mayında belə hallarla bağlı Cinayət Məcəlləsinə yeni müddəaların əlavə edilməsi barədə məlumat yayılıb. APA-nın məlumatına görə, şəxsin razılığı olmadan onun görüntüsü və ya səsindən istifadə etməklə reallığı əks etdirməyən AI materiallarının hazırlanması və yayılması üçün məsuliyyət nəzərdə tutulub.

## Problem yalnız Azərbaycana aid deyil

Bu tendensiyanın miqyasını beynəlxalq məlumatlar da göstərir. ABŞ Federal Ticarət Komissiyasının 2026-cı ilin iyununda açıqladığı məlumatlara görə, ABŞ-da istehlakçılar 2025-ci ildə "impersonation scams" – yəni başqa şəxs və ya qurum kimi təqdim edilən dələduzluq sxemləri nəticəsində 3,5 milyard dollar itki bildirmişdilər. Bu kateqoriyaya telefon, mesaj, elektron poçt, sosial şəbəkə və digər kanallar vasitəsilə həyata keçirilən müxtəlif saxtakarlıqlar daxildir.

Bu rəqəm konkret olaraq yalnız AI-səs dələduzluğunun yaratdığı zərəri göstərmir. Ona görə də onu "AI səs dələduzluğundan 3,5 milyard dollar zərər" kimi təqdim etmək düzgün olmaz. Amma rəqəmsal mühitdə kimisə təqlid etməyə əsaslanan dələduzluğun böyük miqyasını göstərir.

## Azərbaycanlı istifadəçi nə etməlidir?

Mütəxəssislərin tövsiyələrini ümumiləşdirsək, gözlənilməz zəng zamanı:

* yaxın adamın səsinə bənzəsə belə, yalnız səsə güvənməmək;

* pul və ya bank əməliyyatı tələb edilirsə, danışığı dayandırıb şəxsi başqa nömrədən yoxlamaq;

* telefonda kart məlumatı, CVV/CVC, SMS təsdiq kodu və digər məlumatları deməmək;

* sosial şəbəkələrdə şəxsi və biometrik məlumatların açıq paylaşılmasına diqqət etmək;

* şübhəli hadisəni aidiyyəti qurumlara bildirmək lazımdır.

Elektron Təhlükəsizlik Xidməti də vətəndaşlara şəxsi və biometrik məlumatlarını üçüncü şəxslərlə paylaşmamağı tövsiyə edir.

## Əsas sual artıq budur: "Bu, doğrudan da odurmu?"

Süni intellekt dövründə insanın səsi, görüntüsü və yazı üslubu onun kimliyini təsdiqləyən əvvəlki qədər etibarlı göstərici olmaya bilər. Buna görə də rəqəmsal təhlükəsizlik təkcə güclü parol və antivirusdan ibarət deyil.

Ən sadə, amma ən vacib qayda budur: emosional və təcili zəng zamanı səsi deyil, şəxsin kimliyini ayrıca təsdiqləmək.

Bu mövzunun Azərbaycan tərəfi xüsusilə maraqlıdır, çünki 2026-cı ildə həm DİN, həm Elektron Təhlükəsizlik Xidməti, həm də Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti AI, biometrik məlumatlar və deepfake-lə bağlı konkret xəbərdarlıqlar və açıqlamalar verib.

*Ayşən Vəli*



# "İdman siyasətə qarışmır" şüarı aktuallığını itirir

***Avropanın bəzi şirkət, holdinq rəhbərləri, hətta siyasət adamları maliyyə imkanlarını daha da artırmaq üçün hər cür rəzilliyə və fırıldaqlara yol verirlər. İş o yerə çatıb ki, acgöz məxluqlar xalqların özünüifadə forması və cəmiyyətlərin mənəvi-psixoloji sağlamlığının təməl daşı hesab olunan idmandan öz şəxsi maraqlarının təmin olunması üçün istifadə edirlər. Hazırkı dövrdə peşəkar idman birbaşa mənfəət vasitəsinə çevrilib.***

Bəzi hallarda isə idmandan siyasi maraqların təmin olunması üçün də istifadə olunur. Ram olunmayan və ya müstəqillik nümayiş etdirməyə çalışan beynəlxalq idman federasiyalarının rəhbərləri şantaj olunur, təzyiq və hədələrlə üzləşirlər. "İdman siyasətə qarışmır", "Qoy, güclü zəfər çalsın" və bu kimi digər şüarlar və çağırışlar sadəcə şou xarakter daşıyır, dünya azarkeşlərini aldatmağa yönəlib. Fakt ondan ibarətdir ki, bu gün Fransa, Almaniya, ABŞ, Niderland, İspaniya, Belçika, Rusiya və digər dövlətlər idmandan öz dövlət maraqları naminə istifadə etməyə çalışırlar. Bəzi hallarda dövlətlər düşmən, rəqib hesab etdikləri ölkələri ərazilərində keçirilən beynəlxalq idman yarışlarına buraxmaq istəmirlər, iştirak edən idmançılara isə açıq formada təzyiqlər göstərirlər. Bu isə "İdman siyasətə qarışmır" şüarına zidd olmaqla birliyə və düzlüyə uyğun gəlməyən haldır.

### İdmanın siyasətə alət edilməsi yolverilməzdir

Bəzi dünyaca tanınmış ekspertlərin gəldikləri qənaətə görə, hazırda idman növləri arasında daha çox futbol böyük güclərin hədəfindədir. Bu da futbolda daha çox maliyyə vəsaitinin olması və bu idman növünə dünya xalqlarının maraq göstərməsidir. FİFA rəhbərləri siyasi təzyiqlərdən özlərini qorumağa çalışsalar da istəklərinə nail ola bilməyiblər. Müstəqillik nümayiş etdirdiklərinə görə, bəzi dövlətlərin hüquq-mühafizə orqanlarının dəftər-kitabından keçib, məhkəmə salonlarına gətirilirlər. 2022-ci ildə Beynəlxalq Futbol Federasiyasının (FİFA) prezidenti Yozef Blatterin və UEFA-nın sabiq prezidenti Mişel Platininin İsveçrədə məhkəmə qarşısına çıxarılmaları, məhz ABŞ-ın istəyi və İsveçrə hakimiyyətinin marağı əsasında baş tutub. Çünki Yozef Blatterin prinsipiallığı nəticəsində ABŞ və İsveçrə dünya çempionatına buraxılmayıblar. Sözügedən şəxslər haqqında ittiham atı da düzülüb-qoşulmuşdur. İsveçrə Baş Prokurorluğu onları dələduzluqda, vəsaitlərin mənimsənilməsində, cinayətkar idarəetmədə və saxtakarlıqda ittiham edir. 2011-ci ildə onlar 2 milyon İsveçrə frankı məbləğində ödəniş təşkil ediblər və prokurorlar bunun qanunsuz olduğunu bildiriblər.

Məhkəmə prosesində ittiham aktı sübuta yetirilmədi və Yozef Blatterin və Mişel Platinin bəraət aldılar. Bununla bir daha sübuta yetirildi ki, Avropa və ABŞ idmandan sadəcə öz mənafeləri üçün istifadə etməyə çalışırlar. Bu məsələ də ABŞ-ın bir qədər irəli getdiyi müşahidə olunur. Yəni Avropa ölkələri müstəqillik nümayiş etdirən idman federasiyalarının rəhbərlərini "cəzalandırmaq"da zəiflik nümayiş etdirdik də, təşəbbüsü özü əlinə almağa çalışır.

### Cared Kuşnerin qardaşı Coşua Kuşner maliyyə fırıldaqçılığında ittiham olunur



Görünən ondan ibarətdir ki, gücü və imkanlarına söykəndiyindən istəyinə nail ola bilir. Misal olaraq Avropanın həbs etməkdən imtina etdiyi Ceffri Uebbin və FİFA-nın 14 keçmiş və hazırda fəaliyyətdə olan futbol funksionerinin ABŞ polisi tərəfindən həbs olunmalarını göstərmək olar. Araşdırmalardan sonra məlum olur ki, ABŞ polisinin FİFA funksionerlərinin dəmir barmaqlıqlar arasına göndərilməsində ABŞ prezidenti Donalt Trampın qızının əri Kuşnerin xüsusi rolu olub. Səbəbi də, Cared Kuşnerin kiçik qardaşı Coşua Kuşnerə məxsus Thrivein şirkətinə sözügedən şəxslərin maneçiliklər törətmələridir. Ceffri Uebbin və FİFA-nın 14 əməkdaşının həbs edilməsindən keçən qısa müddət ərzində Cared Kuşnerin qardaşı Coşua Kuşnerə məxsus Thrivein şirkəti FİFA-nın əsas kommersiya aktivlərini 20%-ni mənimsəməyə nail oldu. Bu da ümumilikdə 4. 8 milyard dollar vəsaitin oğurlanması deməkdir. Norveç hüquq-mühafizə orqanları cinayət şikayəti hazırlamaq üçün sənədlər tələb edərək Amerika məhkəməsinə iddia qaldırdı. Kuşnerin qardaşı qanun pozuntusuna cəlb olunmadı və iddia rədd edildi.

Gəldiyim qənaətə görə, idmanı siyasətə qatmaq dünya idmanseverlərinə hörmətsizlikdir. Böyük pullar qazanmaq xatirinə idmanda çirkin oyunlar qurmaq, şoular yaratmaq dünya xalqlarını birlikdən, birgə yaşayışdan və sevincli anlardan məhrum etməyə cəhd etmək deməkdir. Belə maqnatlara, siyasət dəllallarına ancaq üzünüz qara olsun deməyə imkanımız çatır.

***İ.ƏLİYEV***

TƏHLİL



# Müharibəyə 10 gün qalırdı...

***Altı il əvvəl, bu gün, yəni sentyabrın 17-si bizi 10 gün sonra qanlı-qadalı müharibə gözləyirdi. Uzun illər idi, o müharibə hər an ola bilərdi. Lakin dövlətimizin başçısı Qarabağ məsələsini danışıqlar yolu-sülhlə həll etmək istəyirdi. Axı Azərbaycan gözü kimsənin torpağında olmayan, müharibə istəməyən bir dövlətdir. Elə milli soykökümüzdən gələn bu keyfiyyətlərlə də dövlətimizin başçısı problemin sülhlə həllinə, hər iki tərəfdə qan tökülməməsinə çalışırdı. Həm də bu, uzun illər idi ki, davam edirdi.***

Torpaqlarımızın geri qaytarılmasının danışıqlar yolu ilə mümkün olmazsa, müharibə yolu ilə olacağını dəfələrlə söyləyən Prezident İlham Əliyev 2020-ci ilə qədər ölkə rəhbəri kimi fəaliyyətinin17 il ərzində beynəlxalq təşkilatlara müraciət etdi, onları Azərbaycanın haqq səsinə səs verməyə, ədalətsizliyə son qoymağa çağırdı, erməni xisləti, yalanı dünyanın mötəbər kürsülərindən ifşa edildi. Lakin təəssüf ki, dünyanın bəzi qüvvələrinin gözü ədaləti görməyə kor, qulağı kar idi. Odur ki, çıxış yolunu Ali Baş Komandan müəyyən etdi.

Ötən illər ərzində dövlət-xalq birliyi ölkənin hərtərəfli inkişafına səbəb olmuş, xüsusilə iqtisadiyyatımız güclənmiş, bu isə güclü ordunun yaradılması və möhkəmləndirilməsi ilə nəticələnmişdi. Hər il dövlət büdcəsindən ordumuzun inkişafına ayrılan vəsait müasir təchizat məsələlərinin həlli olmuşdu ki, bunun 2020-ci ilin sentyabr ayının 27-dən noyabrın 10-dək davam edən İkinci Vətən müharibəsində şahidi olduq. Həm də tək biz yox, bütün dünya şahidi oldu ki, Azərbaycan nəyə qadir imiş.

44 günlük müharibədə əldə etdiyimiz Zəfərə gənclərimizin sayəsində nail olduq. Bu isə ötən illərdə ölkəmizdə gənc nəslin düzgün yetişdirilməsinin, onların vətənpərvər ruhda böyüməsinin nəticəsi idi. Vətənin harayına səs verən, sinəsini Vətən yolunda sipər edən, ölümün gözünə dik baxan gənclərimiz bu xalqa qələbənin şirinliyini daddırdı. Onlar Ali Baş Komandanın ətrafında sıx birləşərək planlı şəkildə-az itkisiz və qısa vaxtda torpaqlarımızı qəsbkarlardan geri aldılar. Dövlətimizin başçısının dediyi kimi: "...İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki, hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı".

Bəli, bütün dünyanın şahidi olduğu həmrəyliyimizlə, yaşından asılı olmayaraq yüksək vətənpərvərliyimizlə, 1990-cı illərlə müqayisəyəgəlməz ordumuzla, ən əsası isə qüdrətli sərkərdəmizlə Qarabağda Zəfər qazandıq.

Bu Zəfər Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik suallarına cavab oldu. İkinci Vətən müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkə rəhbərliyinin sevgisizliyi fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük.

Əgər Birinci Vətən Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə, hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq. Minlərlə şəhidi olan Birinci Vətən müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əmәlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.

Bu gün ölkəmizdə həm Birinci, həm də İkinci Vətən Müharibəsi şəhidlərinin və qazilərinin qiymətləndirilməsi, adlarının əbədiləşdirilməsi, ailələrinə və qazilərə göstərilən diqqət, dövlətimiz tərəfindən onların hər birinin övlad qayğısı ilə əhatə olunması insanda qürur yaradır. Bunun özü də dünyaya bir mesajdır. Mesajdır ki, bizim Vətənimiz, torpağımız nə qədər əzizdirsə, övladlarımız da o qədər dəyərlidir. Həyatını torpaq uğrunda qurban verən, sağlamlığını Vətən üçün fəda edənlər əbədi bir sevgiyə layiqdirlər. Çünki onlar bu sevgiləri ilə yanaşı, həm də böyük bir xalqa müzəffər xalq kimi yaşamağı nəsib ediblər. Prezident cənab İlham Əliyevin dediyi kimi: Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib... Biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq. Əvvəllər torpaqları işğal edilmiş xalq kimi yaşamışıq.

Bu şanlı tarix xalqın torpağınınşərəfinin, ləyaqətinin özünə qaytarmaq üçün çıxdığı bir yol oldu. Bu yolu 30 illik bir zaman kəsiyi 90-cı illərin ağrı-acısı, kədəri-ələmi ilə bağlayırdı. Birincinin işğalını İkinci Zəfərə çevirdi. Birincinin acı göz yaşlarını İkinci sevinc göz yaşlarına çevirdi. Və 270 ildən sonra tariximizin səhifələrinə qan töküb torpaq almaq, ərazi bütövlüyünü bərpa etmək kimi qürurlu sətirləri yazdı.

Qürur duyuruq ki, biz qalib xalqıq və torpaqlarımızı geri almaqla həm də iffət və izzətimizin ucalığını sübut etdik. Uzun illər sonra da 44 günlük Vətən müharibəsi bax belə, qürurla anılacaq. Çünki o müharibə, o Zəfər bizə suverenliyimizi bəxş etdi.

***Mətanət Məmmədova***

# Azərbaycanın beynəlxalq tədbirlər xəritəsi genişlənir

***Uzun illərdir ki, Bakı yalnız Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatının mərkəzi kimi deyil, həm də dünyanın müxtəlif ölkələrindən nümayəndələri bir araya gətirən mühüm beynəlxalq tədbirlərin ünvanı kimi tanınır.***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Paytaxtda keçirilən irimiqyaslı siyasi sammitlər, iqtisadi forumlar, mədəniyyət tədbirləri, idman yarışları və beynəlxalq konfranslar Bakının qlobal dialoq məkanlarından birinə çevrildiyini göstərir. Ölkəmizin beynəlxaq tədbirlərə ev sahibliyi etməsi, minlərlə qonağı qarşılaması beynəlxaq nüfuzunun yüksəlməsi, ölkə iqtisadiyyatına, turizminə, mədəniyyətinə fayda verməsi baxımından da olduqca təqdirəlayiqdir. İndi Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində yüksək səviyyəli mədəni, siyasi, iqtisadi görüşlərin keçirildiyi ölkələrdən biri kimi mövqeyini möhkəmləndirməyə başlayıb.

Ölkəmizin mədəni sahədə əldə etdiyi beynəlxalq uğurlardan biri olan "Eurovision" Mahnı Müsabiqəsinin 2012–ci ildə Bakıda keçirilməsi də bu mövqeyi möhkəmləndirən tədbirlərdən biri oldu. 2011-ci ildə Azərbaycanın ilk dəfə qalib olduğu "Eurovision" yarışmasına növbəti il ev sahibliyi etməsi ölkəmizin beynəlxalq mədəniyyət tədbirlərini yüksək səviyyədə təşkil etmək imkanlarını nümayiş etdirdi. Bütün dünyaya canlı yayımla nümayiş etdirilən açılış mərasimində ən çox yadda qalan məqamlardan biri Azərbaycanın milli musiqi irsinin təqdimatı, dünya şöhrətli xanəndə Alim Qasımovun muğam nümunəsi ilə çıxışı oldu. Yarışma üçün inşa olunan "Bakı Kristal Zalı" daha sonra bir çox böyük miqyaslı tədbirə də məkan oldu.

2015-ci ildə Bakı daha bir beynəlxalq tədbirə - Birinci Avropa Oyunlarına ev sahibliyi etdi. Bu, Avropada ilk dəfə keçirilən çoxnövlü idman yarışı idi və ilk təfə təşkil olunması, həmçinin ilk oyunun Bakıda keçirilməsi Azərbaycan üçün mühüm beynəlxalq hadisə idi. Yarışlarda 50 ölkədən 6 mindən çox idmançı 20 idman növü üzrə mübarizə apardı. Açılış mərasimi isə xüsusilə yadda qaldı, çünki mərasim 4 ildir inşası gedən möhtəşəm bir arenada - Bakı Olimpiya Stadionunda keçirildi. Mərasimdə Azərbaycanın tarixi, mədəniyyəti və musiqi irsi xüsusi şəkildə təqdim edildi. Xoreoqrafik kompozisiyalar, muğam, milli musiqi alətləri və Azərbaycanın müxtəlif mədəni simvolları mərasimin əsas elementləri sırasında idi. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi Bakıda idman infrastrukturunun təkmilləşməsinə də təkan verdi.

Bir il sonra - 2016-cı ildə Bakı BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna da ev sahibliyi etdi. 25–27 aprel 2016-cı il tarixlərində keçirilən forum müxtəlif ölkələrdən dövlət və hökumət nümayəndələrini, beynəlxalq təşkilatların rəhbərlərini, din xadimlərini, alimləri və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirdi. Forumun əsas mövzusu "Birgəyaşayış mədəniyyətinin qurulması: inklüziv cəmiyyətlərdə müxtəlifliyin və ümumi dəyərlərin qorunması" idi. Tədbirdə mədəniyyətlər və dinlərarası dialoqun inkişafı, multikulturalizm, gənclərin radikallaşmasının qarşısının alınması və müxtəlif icmalar arasında qarşılıqlı anlaşmanın gücləndirilməsi kimi məsələlər müzakirə olundu.

Bakı forum çərçivəsində müxtəlif mədəniyyətlərin və dinlərin dialoq məkanı kimi təqdim edildi. Bu tədbir Azərbaycanın beynəlxalq səviyyədə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfənin nümayiş etdirilməsi baxımından mühüm hadisələrdən biri oldu. Bu forumun Azərbaycanda təşkili tolerant və çoxmillətli bir ölkəni bütün dünyaya layiqincə tanıtdı.

2016-cı ildə Bakı daha bir mötəbər beynəlxalq idman tədbirinə – Formula 1 Avropa Qran-prisinə ev sahibliyi etdi. Yarış Azərbaycanın Formula 1 təqviminə ilk dəfə daxil olması və elə ilk ildən də ev sahibi olması ilə ölkəmiz üçün əlamətdar bir hadisə idi. Yarışın ən diqqətçəkən xüsusiyyətlərindən biri Bakı şəhər halqası oldu. Dünyanın ən sürətli küçə traslarından biri hesab edilən bu marşrut İçərişəhərin tarixi küçələrindən, Dənizkənarı bulvardan və şəhərin müasir hissəsindən keçirdi. Xüsusilə İçərişəhərin qala divarları boyunca uzanan dar və sürətli hissə yarışa özünəməxsus görüntü verirdi və bu marşrutun yarış boyu canlı yayımlanması Bakının qədim və müasir ruhunun vəhdətindən yaranan əsrarəngiz harmoniyasını dünyaya tanıtdı. Avropa Oyunlarından sonra belə bir beynəlxalq yarışın Bakıda keçirilməsi şəhərin beynəlxalq idman tədbirlərinin keçirildiyi məkan kimi tanınmasına və Azərbaycanın dünyada təbliğinə əlavə imkan yaratdı. Əldə olunan razılaşmaya görə ölkəmiz 2030-cu ilədək bu yarışlara ev sahibliyi edəcək.

Bakı 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi etdi. 12–22 may 2017-ci il tarixlərində keçirilən yarışlarda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdən 3 mindən çox idmançı 20 idman növü üzrə mübarizə apardı. Bakı həmin günlərdə ümumilikdə 54 ölkədən qonaq qəbul etmişdi. Oyunların açılış mərasimi Bakı Olimpiya Stadionunda keçirildi və Azərbaycanın tarixinin, mədəniyyətinin və İslam dünyasının ortaq dəyərlərinin təqdimatı ilə yadda qaldı. Mərasimdə milli musiqi və rəqs nümunələri ilə yanaşı, Azərbaycanın müxtəlif tarixi və mədəni irs elementləri də nümayiş etdirildi. IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi Azərbaycanın İslam dünyası ilə əməkdaşlığının və mədəni əlaqələrinin beynəlxalq səviyyədə nümayişi baxımından əhəmiyyətli hadisələrdən biri oldu.

2018-ci ilin aprelində Azərbaycan üçün Qoşulmama Hərəkatı (QH) ilə bağlı beynəlxalq tədbirlər baxımından da mühüm mərhələ oldu. Həmin il Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyə namizədliyi təşkilatın üzv dövlətləri tərəfindən dəstəkləndi. Bakıda Hərəkata üzv ölkələrin nümayəndələrinin iştirakı ilə beynəlxalq sülh və təhlükəsizlik, parlamentlərarası əməkdaşlıq və çoxtərəfli diplomatiya məsələlərinin müzakirə edildiyi tədbirlər keçirildi. Bu tədbirlər Azərbaycanın çoxtərəfli diplomatiya və beynəlxalq dialoq platforması kimi rolunun genişlənməsinə xidmət etdi, həmçinin Qoşulmama Hərəkatında fəal iştirakını genişləndirdi və yüksək səviyyəli beynəlxalq görüşlərə ev sahibliyini layiqincə yerinə yetirdiyini sübut etdi.

2019-cu ildə Bakı Dünya Gömrük Təşkilatının (DGT) mühüm beynəlxalq tədbirlərindən birinə də ev sahibliyi etdi. Bakıda DGT-nin Gömrük Əməkdaşlığı Şurasının 132 və 133-cü sessiyaları və digər əlaqəli tədbirlər keçirildi, tədbirlərdə dünyanın müxtəlif ölkələrinin gömrük xidmətlərinin rəhbərləri və nümayəndələri iştirak edərək beynəlxalq gömrük əməkdaşlığı, ticarətin asanlaşdırılması, gömrük prosedurlarının rəqəmsallaşdırılması və sərhəd təhlükəsizliyi kimi məsələləri müzakirə etdilər. Bakının belə yüksək səviyyəli beynəlxalq gömrük tədbirinə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq iqtisadi və institusional əməkdaşlıq platforması kimi rolunu nümayiş etdirən hadisələrdən biri oldu, ölkəmiz beynəlxalq iqtisadi və logistika məsələlərinin müzakirə edildiyi qlobal platformalardan birinə çevrildi.

Elə həmin il Bakı UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına da ev sahibliyi etdi. İyul ayında keçirilən tədbirdə Ümumdünya İrs Siyahısına yeni obyektlərin daxil edilməsi, təhlükə altında olan irsin qorunması, tarixi və mədəni abidələrin mühafizəsi ilə bağlı məsələlər müzakirə olundu. Sessiyanın Bakıda keçirilməsi Azərbaycanın mədəni irsin qorunması sahəsində beynəlxalq əməkdaşlığa verdiyi önəmin göstəricilərindən biri kimi qiymətləndirildi. Sessiyanın açılış mərasimi Bakının memarlıq incilərindən hesab edilən Heydər Əliyev Mərkəzində keçirildi. Tədbir Azərbaycanın mədəni irsinin, xüsusilə muğam, xalçaçılıq və digər milli sənət nümunələrinin beynəlxalq auditoriyaya təqdim olunması baxımından da diqqət çəkdi. Bu sessiya Azərbaycanın UNESCO ilə əməkdaşlığının və Bakının beynəlxalq mədəniyyət tədbirlərinə ev sahibliyi edən şəhər kimi mövqeyinin möhkəmlənməsi baxımından əhəmiyyətli hadisələrdən biri oldu.

2021-ci ildə Bakı Türk Dövlətləri Təşkilatının VIII Zirvə Görüşünə də ev sahibliyi etdi. Zirvə görüşü Türk dünyasının dövlət və hökumət başçılarını bir araya gətirdi. Görüşdə türk dövlətləri arasında siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəniyyət və humanitar əlaqələrin genişləndirilməsi, həmçinin təşkilatın gələcək fəaliyyət istiqamətləri müzakirə edildi. Bakı görüşünün əsas məqamlarından biri Azərbaycanın 2020-ci il Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar və türk dövlətləri arasında əməkdaşlığın inkişafı məsələlərinin gündəmdə olması idi.

2022-ci ildə Bakı beynəlxalq enerji gündəliyində mühüm yer tutan tədbirlərdən daha birinə – Bakı Enerji Həftəsinə ev sahibliyi etdi. 1–4 iyun tarixlərində keçirilən həftə çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 10-cu Yubiley Xəzər Beynəlxalq Enerji və Bərpaolunan Enerji Sərgisi və Bakı Enerji Forumu bir araya gəldi. Bakı Enerji Forumunda 20 ölkədən 400-dən çox nümayəndə iştirak etdi. Müzakirələrdə qlobal enerji perspektivləri, yaşıl enerjiyə keçidin maliyyələşdirilməsi, Xəzər regionunda neft-qaz imkanları, enerji təhlükəsizliyi və karbonsuzlaşma kimi məsələlər müzakirə olundu. Azərbaycan enerji təhlükəsizliyi, nəqliyyat və regional əməkdaşlıq mövzularında beynəlxalq platformalarda fəallığını artırdı.

2023-cü ilin martında Bakı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən X Qlobal Bakı Forumuna ev sahibliyi etdi. Forumda dövlət və hökumət başçıları, keçmiş prezidentlər və baş nazirlər, Nobel mükafatı laureatları, beynəlxalq təşkilatların nümayəndələri və ekspertlər iştirak etdilər. Müzakirələrdə qlobal təhlükəsizlik, sülh, çoxtərəfli əməkdaşlıq, iqlim və ərzaq təhlükəsizliyi, nəqliyyat dəhlizləri, Avropanın və Afrikanın gələcəyi, elm və texnologiya kimi məsələlərə diqqət yetirildi. X Qlobal Bakı Forumu Azərbaycanın paytaxtının müxtəlif ölkələrdən yüksək səviyyəli nümayəndələri bir araya gətirən və qlobal problemlərin müzakirə olunduğu beynəlxalq dialoq platformalarından biri kimi mövqeyini daha da möhkəmləndirdi.

2024-cü ilin noyabrında Bakı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi etdi. Konfrans dünyanın təxminən 200 ölkəsindən nümayəndələri bir araya gətirdi. Tədbir çərçivəsində Bakıya 70 mindən çox qonaq gəld. COP29 Azərbaycanın ev sahibliyi etdiyi ən böyük beynəlxalq tədbirlərdən biri olmaqla yanaşı, Bakını qlobal iqlim danışıqlarının əsas platformalarından birinə çevirdi. COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

2026-cı ilin mayında Bakı BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşkil etdiyi Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına (WUF13) ev sahibliyi etdi. WUF13 Azərbaycanın şəhərsalma təcrübəsinin, o cümlədən Bakı şəhərinin inkişaf modeli, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpaquruculuq layihələri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının beynəlxalq auditoriyaya təqdim edilməsi üçün mühüm platforma oldu. Bu forum Bakının qlobal şəhərsalma və dayanıqlı inkişaf məsələlərinin müzakirə olunduğu beynəlxalq mərkəzlərdən birinə çevrilməsində mühüm mərhələ kimi qiymətləndirildi.

Bu gün qürurla deyə bilərik ki, Azərbaycanın beynəlxalq tədbirlər xəritəsi son 20 ildə çox genişlənib. Ölkəmiz Eurovision, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1, UNESCO tədbirləri, qlobal forumlar və COP29 kimi müxtəlif miqyaslı tədbirlərə layiqli ev sahibliyi etməklə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlıq platformalarından biri kimi çıxış etməsinə və Bakı şəhərinin beynəlxalq tədbirlər mərkəzi kimi tanınmasına nail olub.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
18 sentyabr
2026-cı il



# Roblox uşaqlar üçün sadəcə oyun deyil: valideynlərin bilmədiyi təhlükələr və yeni qaydalar

ARAŞDIRMA

***Bir çox valideyn üçün Roblox sadəcə uşağın telefonda və ya kompüterdə oynadığı oyunlardan biridir. Uşaq evdədir, qarşısında ekran var və valideyn də onun təhlükəsiz yerdə olduğunu düşünür. Lakin Roblox-un bugünkü mahiyyəti bundan xeyli fərqlidir. Platformada uşaqlar yalnız oyun oynamır, eyni zamanda müxtəlif insanlarla ünsiyyət qurur, dostluq əlaqələri yaradır, virtual dünyalara daxil olur, öz oyunlarını hazırlayır və artıq süni intellektdən istifadə etməklə yeni məzmun yarada bilirlər. Buna görə də Roblox ətrafında müzakirə getdikcə sadə bir oyun məsələsindən çıxaraq uşaqların internetdə təhlükəsizliyi məsələsinə çevrilir.***




SİA mövzu ilə bağlı araşdırma edib.

Məhz buna görə platforma 2026-cı ildən çat funksiyasından istifadə etmək istəyənlər üçün qlobal yaş yoxlaması tətbiq etməyə başlayıb. Roblox-un açıqlamasına görə, istifadəçinin yaşı üz əsaslı texnologiya ilə qiymətləndirilir və məqsəd böyüklərlə 16 yaşdan aşağı uşaqlar arasında ünsiyyəti məhdudlaşdırmaqdır. Doqquz yaşdan aşağı uşaqlar üçün isə çat funksiyasının aktivləşdirilməsi valideyn razılığı ilə mümkün olacaq.

Bu addımın özü də problemin miqyasını göstərir. Çünki məsələ artıq yalnız uşağın hansı oyunu oynaması ilə bağlı deyil. Əsas sual uşağın həmin platformada kimlərlə əlaqə saxlaması və qarşı tərəfin əslində kim olmasıdır.

Roblox-u digər oyunlardan fərqləndirən əsas xüsusiyyət də məhz sosial tərəfidir. Uşaq bir oyuna daxil olur, orada başqa istifadəçilərlə qarşılaşır, yazışa və müxtəlif insanları dost siyahısına əlavə edə bilir. Valideyn isə kənardan baxanda sadəcə oyun oynandığını görür. Halbuki ekranın digər tərəfində tanımadığı bir insanın olması mümkündür.

Bu risklərin nəzəri olmadığı da artıq müxtəlif ölkələrdə aparılan yoxlamalarla ortaya çıxır. Avstraliyanın internet təhlükəsizliyi üzrə tənzimləyicisinin apardığı araşdırmada böyüklərin müəyyən hallarda valideyn razılığı olmadan uşaqlara əlaqə sorğuları göndərə bildiyi və bəzi profil məlumatlarının digər istifadəçilər üçün əlçatan olduğu müəyyənləşdirilib. Bundan sonra Roblox-dan uşaqların hesablarının məxfiliyini gücləndirmək və böyüklərin tanımadıqları uşaqlara nəzarətsiz şəkildə müraciət etməsinin qarşısını almaq tələb olunub.

Beləliklə, valideyn üçün vəziyyət bir qədər dəyişir. Artıq "Uşağım hansı oyunu oynayır?" sualı ilə kifayətlənmək mümkün deyil. "Kimlə oynayır?", "Kimlə danışır?", "Nə paylaşır?" və "Qarşısındakı şəxsin kim olduğunu bilirmi?" sualları da eyni dərəcədə əhəmiyyətlidir.

Digər tərəfdən, Roblox-u tamamilə təhlükəli platforma kimi təqdim etmək də doğru olmaz. Platformanın uşaqlara verdiyi imkanlar arasında yaradıcılıq və texnologiya bacarıqlarının inkişafı da var. İstifadəçilər öz oyunlarını hazırlaya, proqramlaşdırma və dizayn öyrənə bilirlər. Üstəlik, Roblox son dövrdə süni intellektdən istifadə etməklə oyun yaratma prosesini daha da sadələşdirir.

Şirkətin sentyabr ayında açıqladığı məlumata görə, "Build" adlı süni intellekt aləti istifadəçiyə sadəcə mətn göstərişi verməklə oynanıla bilən oyun yaratmağa imkan verir. Şirkət bu alətin təqdim edilməsindən sonra minlərlə yeni oyunun yaradıldığını açıqlayıb. Bu yenilik bir tərəfdən uşaqlar üçün maraqlı imkanlar yaradırsa, digər tərəfdən nəzarətlə bağlı yeni suallar doğurur. Əgər istifadəçi bir neçə dəqiqə ərzində süni intellektin köməyi ilə oyun yarada bilirsə, həmin oyunun məzmununa və orada baş verənlərə kim nəzarət edəcək?

Roblox-la bağlı müzakirələrin Azərbaycanda da aparılması təsadüfi deyil. 2026-cı ilin martında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Roblox nümayəndələri ilə görüş keçirilib. Görüşdə 16 yaşadək uşaqların təhlükəsizliyi məsələsi müzakirə olunub və platformanın fəaliyyətinin məhdudlaşdırılması ehtimalının da gündəmə gəldiyi açıqlanıb.



Bu da göstərir ki, Roblox məsələsi artıq yalnız valideynlərin şəxsi narahatlığı deyil. Uşaqların rəqəmsal mühitdə qorunması dövlətlərin və beynəlxalq qurumların da diqqət yetirdiyi məsələyə çevrilib.

Dünyada ümumi tendensiya da bu istiqamətdədir. Avropa İttifaqında uşaqların sosial şəbəkələr, onlayn oyunlar, video platformaları və süni intellekt xidmətlərindən istifadəsinə yaş məhdudiyyətlərinin tətbiqi ilə bağlı müzakirələr aparılır. Burada əsas məqsəd uşaqları texnologiyadan tamamilə uzaqlaşdırmaq yox, onların rəqəmsal mühitdə daha təhlükəsiz olmasını təmin etməkdir.

Əslində, Roblox ətrafında yaranan müzakirə daha böyük bir problemin yalnız bir hissəsidir. Uşaqlar artıq internetdən ayrı böyümürlər. Onların gündəlik həyatında oyunlar, sosial şəbəkələr, video platformaları, çatbotlar və süni intellekt alətləri getdikcə daha böyük yer tutur. Texnologiya inkişaf etdikcə uşaqlar üçün yeni imkanlar yaranır, amma həmin imkanlarla birlikdə yeni risklər də ortaya çıxır.



Bu vəziyyətdə valideynin nəzarəti də yalnız uşağın ekran qarşısında neçə saat keçirməsi ilə məhdudlaşmamalıdır. Valideyn uşağın hansı platformalardan istifadə etdiyini, kimlərlə ünsiyyət saxladığını və şəxsi məlumatlarını paylaşıb-paylaşmadığını bilməlidir. Uşağa isə internetdə tanımadığı şəxslərlə şəxsi məlumat mübadiləsi etməmək, foto və ünvan kimi məlumatları paylaşmamaq, narahatedici vəziyyətlə qarşılaşdıqda bunu böyüklərdən gizlətməmək izah edilməlidir.

Çünki rəqəmsal dünyada uşağı qorumağın yolu onu bütün texnologiyalardan uzaqlaşdırmaq deyil. Əsas məsələ onun istifadə etdiyi texnologiyanın necə işlədiyini və hansı risklər daşıdığını bilməkdir.

Roblox nümunəsi də əslində bunu göstərir: uşaq ekran qarşısında tək görünə bilər, amma rəqəmsal dünyada heç vaxt tamamilə tək deyil. Qarşısındakı insanın kim olduğunu, gördüyü məzmunun necə yarandığını və istifadə etdiyi platformanın onun təhlükəsizliyini necə qoruduğunu bilmək artıq həm valideynin, həm də platformaların əsas məsuliyyətlərindən biridir.

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**